1. Beynəlxalq iqtisadiyyatın əsas əlamətləri hansılardır? Dünya bazarı ilə dünya təsərrüfatı arasındakı fərqləri göstərin.

Beynəlxalq iqtisadiyyat beynəlxalq əmtəə mübadiləsini, istehsal amillərinin hərəkətini, maliyyələşməni və beynəlxalq iqtisadi siyasəti öyrənən iqtisadi nəzəriyyə sahəsidir.

Beynəlxalq iqtisadiyyat şərti olaraq iki hissəyə bölünür: beynəlxalq mikroiqtisadiyyat və beynəlxalq makroiqtisadiyyat. Beynəlxalq mikroiqtisadiyyat məhsulların, xidmətlərin və istehsal amillərinin ölkələr arasında hərəkətini, həmçinin bu sahədə dövlət siyasətini öyrənir. Buraya beynəlxalq ticarət daxildir. Dünya bazarında firmalar bir-biri ilə rəqabət aparır, məhsul və xidmətlər isə istehsalçılardan istehlakçılara çatdırılır. Beynəlxalq makroiqtisadiyyat isə açıq iqtisadiyyat şəraitində dövlətin iqtisadi siyasətini, ölkələrin real, fiskal və monetar sektorlarının qarşılıqlı fəaliyyətini və dünya təsərrüfatını öyrənir.

Beynəlxalq iqtisadiyyatın üç əsas struktur elementi vardır. 1) beynəlxalq əmək bölgüsü, dünya bazarı, dünya təsərrüfatı və beynəlxalq iqtisadiyyat kimi əsas anlayışları əhatə edən anlayışlar və konsepsiyalardır. 2) xarici ticarətin, istehsal amillərinin hərəkətinin, valyuta və maliyyə münasibətlərinin dövlət tərəfindən tənzimlənməsini əhatə edən dövlətlərin iqtisadi siyasətidir. 3) isə əmtəə və xidmət ticarəti, kapitalın, işçi qüvvəsinin və texnologiyanın hərəkəti, maliyyə alətləri ilə ticarət və beynəlxalq hesablaşmalar kimi beynəlxalq iqtisadi münasibətlərin konkret formalarıdır.

Bu münasibətlər bir-biri ilə sıx bağlıdır. Məsələn, kapitalın hərəkəti, əmək miqrasiyası və texnologiyanın ötürülməsi beynəlxalq ticarətlə əlaqəli ola bilər. Beynəlxalq iqtisadiyyatın mikroiqtisadiyyat və makroiqtisadiyyata bölünməsi şərtidir. Çünki ticarət və istehsal amillərinin hərəkəti əsasən real sektorla, maliyyə axınları və maliyyə alətləri ilə ticarət isə daha çox dövriyyə sferası ilə əlaqəlidir.

Beynəlxalq iqtisadiyyatın əsas əlamətləri aşağıdakılardır:

1. Beynəlxalq əmtəə mübadiləsi – ölkələr arasında beynəlxalq ticarətin inkişaf etməsi.
2. İstehsal amillərinin beynəlxalq hərəkəti – kapitalın, işçi qüvvəsinin və texnologiyanın ölkələr arasında idxal və ixracı.
3. Beynəlxalq istehsal – müxtəlif ölkələrdə yerləşən müəssisələrdə məhsulların istehsal edilməsi. Bu, xüsusilə transmilli korporasiyalarda (TMK-larda) geniş yayılmışdır.
4. İnternet vasitəsilə yeni məhsulların yaradılması – müxtəlif ölkələrdə yerləşən istehsal amillərinin birləşdirilməsi ilə yeni məhsulların hazırlanması.
5. Açıq iqtisadiyyat siyasəti – əksər dövlətlərin açıq iqtisadiyyat prinsiplərinə əsaslanan iqtisadi siyasət həyata keçirməsi.
6. Müstəqil beynəlxalq maliyyə sahəsi – əmtəə ticarəti və istehsal amillərinin hərəkəti ilə birbaşa əlaqəsi olmayan beynəlxalq maliyyə fəaliyyətinin mövcudluğu.
7. Beynəlxalq və transmilli tənzimləmə mexanizmləri – iqtisadi inkişafın

tarazlığını və sabitliyini təmin etməyə yönələn mexanizmlər sistemi.

Geniş mənada beynəlxalq iqtisadiyyat nəzəriyyəsinin mövzusu beynəlxalq dövriyyədə olan məhsullara və istehsal amillərinə tələb və təklifin necə formalaşmasını, həmçinin bu proseslərin ölkələrin iqtisadi siyasətinə təsirlərini öyrənməkdir.

Dünya bazarı ilə dünya təsərrüfatı arasındakı fərq onların əhatə etdiyi fəaliyyət sahələri ilə bağlıdır. Birinci əlamət yalnız dünya bazarına aiddir. Birinci–dördüncü əlamətlər dünya təsərrüfatını, birinci–altıncı əlamətlər isə beynəlxalq iqtisadiyyatın tam mənzərəsini xarakterizə edir.

Beləliklə, dünya bazarı əsasən ölkələr arasında əmtəə mübadiləsini, dünya təsərrüfatı isə beynəlxalq ticarətlə yanaşı, istehsal amillərinin hərəkətini və müxtəlif ölkələrdə həyata keçirilən istehsalı da əhatə edir. Beynəlxalq iqtisadiyyat bunlardan daha geniş anlayışdır və beynəlxalq maliyyə sahəsini də özündə birləşdirir.

2. Qloballaşmanı şərtləndirən əsas faktorlar hansılardır?

Qloballaşma geniş mənada bütün bəşəriyyətin bir-biri ilə əlaqəli olduğu vahid dünya cəmiyyətinin formalaşması prosesidir. Qloballaşma müasir dünyada ölkələrin qarşılıqlı asılılığının, inteqrasiyasının və əlaqələrinin güclənməsi deməkdir. Bu proses nəticəsində dövlətlər, insanlar və müxtəlif sahələr arasında əlaqələr artır, dünya getdikcə daha bütöv bir sistemə çevrilir.

Qloballaşmanın mahiyyəti internasionallaşma, liberallaşma, universallaşma və vesternizasiya anlayışları ilə izah olunur. İnternasionallaşma ölkələr arasında əlaqələrin genişlənməsi, liberallaşma məhdudiyyətlərin azaldılması, universallaşma ümumi qayda və xüsusiyyətlərin yayılması, vesternizasiya isə Qərb dəyərlərinin digər ölkələrdə yayılması deməkdir.

Qloballaşmanın nə vaxt başladığı haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər onun başlanğıcını insanlığın yaranması ilə, digərləri təxminən 5 min il əvvəl baş vermiş Neolit inqilabı, Yeni dövr, təxminən 500 il əvvəlki Modern dövr, XIX əsrin ortaları, XX əsrin ortaları və ya XX əsrin sonu ilə əlaqələndirirlər. Lakin əksər alimlər XXI əsrin əvvəlində qloballaşmanın daha da sürətləndiyini qəbul edirlər.

Qloballaşmanı sürətləndirən əsas faktorlar dörd qrupa bölünür.

1. Birincisi, internetin və kommunikasiya texnologiyalarının sürətli inkişafıdır. Bu inkişaf dünyanın vahid kommunikasiya məkanına çevrilməsinə, ölkələr və insanlar arasında əlaqələrin daha sürətli qurulmasına şərait yaradır.
2. İkincisi, sosialist iqtisadi sisteminin dağılmasıdır. Bundan sonra ölkələrin bazar iqtisadiyyatı modelinə keçidi genişlənmiş, siyasi təşkilatlanmada isə demokratik modelə yaxınlaşma müşahidə olunmuşdur.
3. Üçüncüsü, bütün bəşəriyyəti təhdid edən qlobal problemlərin artmasıdır. Bu problemlər yalnız bir ölkəyə deyil, bütün dünyaya təsir edə bilər və ölkələr arasında əməkdaşlığı zəruri edir.
4. Dördüncüsü, qlobal problemlərin həlli üçün beynəlxalq və dövlətlərüstü koordinasiya və idarəetmə mexanizmlərinə ehtiyacın artmasıdır. Yəni dünya

miqyasında yaranan problemlərin həlli üçün ölkələrin birgə fəaliyyət göstərməsi və ortaq qərarlar qəbul etməsi vacibdir.

Beləliklə, qloballaşmanı şərtləndirən əsas amillər internet və kommunikasiya texnologiyalarının inkişafı, sosialist sisteminin dağılması, qlobal problemlərin artması və bu problemlərin həlli üçün beynəlxalq əməkdaşlığa ehtiyacın güclənməsidir.

3.Beynəlxalq mikroiqtisadiyyat və Beynəlxalq makroiqtisadiyyat birbirindən nə ilə fərqlənir və onların hər biri hansı iqtisadi prosesləri öyrənir?

Beynəlxalq iqtisadiyyat – beynəlxalq əmtəə mübadiləsi, istehsal amillərinin hərəkəti, maliyyələşmə, beynəlxalq iqtisadi siyasətin formalaşması sahəsində qarşılıqlı təsirin qanunauyğunluqlarını öyrənən iqtisadi nəzəriyyə sahəsidir. Beynəlxalq iqtisadiyyat şərti olaraq iki hissəyə bölünür – beynəlxalq mikroiqtisadiyyat və beynəlxalq makroiqtisadiyyat:

1) Beynəlxalq mikroiqtisadiyyat (international microeconomics) – məhsulların, xidmətlərin və istehsal amillərinin beynəlxalq hərəkəti və bu sahədə dövlət siyasətini öyrənir. Buraya beynəlxalq ticarət daxildir, çünki bu, istehsalçı ilə istehlakçı arasında ticarətə yönəlib və firmalar, dövlətlər deyil, dünya bazarında bir-biri ilə rəqabət aparırlar.

2) Beynəlxalq makroiqtisadiyyat (international macroeconomics) –açıq iqtisadiyyat şəraitində dövlətin iqtisadi siyasətini, ölkələrin və onların sektorlarının (real, fiskal, monetar) qarşılıqlı fəaliyyətini və dünya təsərrüfatını öyrənir.

4. Açıq və qapalı iqtisadiyyat anlayışları nədir? Beynəlxalq iqtisadiyyatın formalaşmasında açıq iqtisadiyyatın rolu nədən ibarətdir?

Qapalı iqtisadiyyat yalnız ölkə daxilindəki rezidentlərin, yəni ev təsərrüfatlarının, firmaların və digər iqtisadi iştirakçıların bir-biri ilə qarşılıqlı əlaqədə olduğu iqtisadiyyatdır. Belə iqtisadiyyatda məhsul və xidmətlər ölkə daxilində istehsal olunur, bölüşdürülür və istehlak edilir.

Açıq iqtisadiyyat isə ölkə daxilindəki iqtisadi iştirakçıların xarici ölkələrin iqtisadi iştirakçıları, yəni qeyri-rezidentlərlə də qarşılıqlı əlaqədə olduğu iqtisadiyyatdır. Bu əlaqələr beynəlxalq ticarəti, kapitalın, işçi qüvvəsinin və texnologiyanın ölkələr arasında hərəkətini əhatə edir.

Heç bir ölkənin iqtisadiyyatı ətraf mühitdən tam təcrid olunmuş şəkildə mövcud ola bilməz. Buna görə də açıq iqtisadiyyat beynəlxalq iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayır.

Açıq iqtisadiyyatın inkişafı XX əsrin ikinci yarısında sürətlənmişdir. 1950-ci illərdə müstəmləkə sisteminin dağılması nəticəsində koloniyaların metropoliyalardan iqtisadi asılılığı azalmağa başladı. 1990-cı illərin əvvəllərində isə real sosializm sisteminin dağılması və keçmiş sosialist ölkələrinin bazar iqtisadiyyatına keçməsi beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə şərait yaratdı.

Nəticədə, əksər ölkələr açıq iqtisadiyyat prinsiplərinə əsaslanan siyasət yürütməyə başladılar. Onlar yalnız dünya bazarında fəal iştirak etməklə kifayətlənməyib, dövlətlərarası iqtisadi fəaliyyətin əlaqələndirilməsi və tənzimlənməsi üçün birgə tədbirlər də həyata keçirdilər.

Açıq iqtisadiyyat beynəlxalq iqtisadiyyatın formalaşmasında əsas rol oynayır. O, ölkələr arasında əmtəə və xidmət mübadiləsinin genişlənməsinə, kapitalın, işçi qüvvəsinin və texnologiyanın beynəlxalq hərəkətinə, müxtəlif ölkələrdə yerləşən müəssisələr arasında istehsal əlaqələrinin yaranmasına şərait yaradır. Həmçinin beynəlxalq maliyyə əlaqələrinin və iqtisadi əməkdaşlığın inkişafına kömək edir.

Beləliklə, XX əsrin ikinci yarısında bazar iqtisadiyyatı dünya təsərrüfatından daha yüksək səviyyəyə — beynəlxalq iqtisadiyyat səviyyəsinə yüksəlmişdir. Bu prosesdə ölkələrin açıq iqtisadiyyat prinsiplərinə keçməsi və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi mühüm əhəmiyyət daşımışdır.

5. Qloballaşmanın əsas səbəbləri hansılardır və onun 3 dalğası haqqında danışın.

Qloballaşma bütün bəşəriyyətin bir-biri ilə əlaqəli olduğu vahid dünya cəmiyyətinin formalaşması prosesidir. Bu proses nəticəsində ölkələrin qarşılıqlı asılılığı, inteqrasiyası və əməkdaşlığı güclənir. Dünya tədricən malların, xidmətlərin, kapitalın, işçi qüvvəsinin və biliklərin sərbəst hərəkət etdiyi vahid bazara çevrilir.

Qloballaşmanın mahiyyəti internasionallaşma, liberallaşma, universallaşma və vesternizasiya anlayışları ilə izah olunur. İnternasionallaşma ölkələrarası əlaqələrin genişlənməsi, liberallaşma məhdudiyyətlərin azaldılması, universallaşma ümumi qayda və xüsusiyyətlərin yayılması, vesternizasiya isə Qərb dəyərlərinin yayılması deməkdir.

Qloballaşmanın əsas səbəbləri bir neçə amillə bağlıdır. Birincisi, internetin və kommunikasiya texnologiyalarının sürətli inkişafıdır. Bu, dünyanın vahid kommunikasiya məkanına çevrilməsinə və ölkələr arasında əlaqələrin asanlaşmasına şərait yaratmışdır. İkincisi, sosialist iqtisadi sisteminin dağılmasıdır. Bundan sonra ölkələrin bazar iqtisadiyyatına keçidi genişlənmiş, siyasi təşkilatlanmada isə demokratik modelə yaxınlaşma baş vermişdir. Üçüncüsü, bütün bəşəriyyəti təhdid edən qlobal problemlərin artmasıdır. Dördüncüsü isə bu problemlərin həlli üçün beynəlxalq və dövlətlərüstü əməkdaşlığa, koordinasiya və idarəetmə mexanizmlərinə ehtiyacın artmasıdır.

Qloballaşmanın başlanğıcı haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər onun başlanğıcını insanlığın yaranması, Neolit inqilabı, Yeni dövr, təxminən 500 il əvvəlki Modern dövr, XIX əsrin ortaları, XX əsrin ortaları və ya XX əsrin sonu ilə əlaqələndirirlər. Əksər alimlər isə XXI əsrin əvvəlində qloballaşmanın daha da sürətləndiyini qəbul edirlər.

Qloballaşmanın üç dalğası fərqləndirilir .

1. Birinci dalğa (1870-ci ildən 1920-ci illərə qədər) nəqliyyat vasitələrinin inkişafı və proteksionist tədbirlərin azalması ilə xarakterizə olunur. Nəqliyyatın inkişafı ölkələr arasında əlaqələri asanlaşdırmış, ticarətin genişlənməsinə şərait yaratmışdır.

2. İkinci dalğa (1950–1980-ci illər) Avropa, Şimali Amerika və Yaponiya arasında iqtisadi inteqrasiyanın güclənməsi ilə seçilir. Bu dövrdə həmin regionlar arasında ticarət genişlənmiş və iqtisadi əlaqələr daha da inkişaf etmişdir.

3. Üçüncü dalğa (1980-ci illərdən bu günə qədər) texnologiyaların ölkələr arasında ötürülməsi və inkişaf etməkdə olan ölkələrin transmilli korporasiyalardan böyük həcmdə investisiya cəlb etməyə çalışması ilə xarakterizə olunur. Bu dövrdə beynəlxalq iqtisadi əlaqələr daha da genişlənmişdir.

Qloballaşma dünya iqtisadiyyatının müxtəlif sahələrini əhatə edir. Bunlara beynəlxalq ticarət (mallar, xidmətlər, texnologiyalar və intellektual mülkiyyət), istehsal amillərinin beynəlxalq hərəkəti (əmək resursları, kapital və informasiya), beynəlxalq maliyyə-kredit və valyuta əməliyyatları , həmçinin istehsalat, elmi-texniki , texnoloji, mühəndislik və informasiya əməkdaşlığı daxildir.

Qloballaşmanın əsas xüsusiyyətləri dörd istiqamətdə izah olunur. Birincisi, müstəqillik və qeyri-standartlıqdır . Qloballaşma əsasən öz inkişaf məntiqinə malikdir. Dövlətlər bu prosesə dəstək verə və ya ona mane ola bilərlər , lakin prosesi tam dayandırmaq mümkün deyil. İkincisi, nəticələrin əvvəlcədən dəqiq proqnozlaşdırılmasının çətinliyidir . Qloballaşmanın gələcəkdə hansı nəticələrə gətirib çıxaracağını tam müəyyən etmək mümkün deyil. Üçüncüsü, müxtəlif sahələrdə fərqli inkişaf tempidir. Məsələn, iqtisadi və informasiya qloballaşması siyasi və ideoloji qloballaşmadan daha sürətlə inkişaf edir. İnternetə və maliyyə bazarlarına çıxış genişlənsə də, bəzi ölkələrin siyasi quruluşu və ideologiyası daha yavaş dəyişir. Dördüncüsü, ziddiyyətlilikdir . Qloballaşma müxtəlif ölkələr və qruplar tərəfindən fərqli qəbul edilir. Ölkələr arasındakı inkişaf səviyyəsi, ideoloji fərqlər və qlobal problemlərin həlli üçün uyğun mexanizmlərin çatışmazlığı ziddiyyətlərə və münaqişələrə səbəb ola bilər.

Beləliklə , qloballaşma ölkələr arasında iqtisadi, texnoloji və informasiya əlaqələrini gücləndirən, dünya iqtisadiyyatını vahid bazara yaxınlaşdıran prosesdir. Onun üç dalğası nəqliyyatın inkişafı və ticarətin genişlənməsindən başlayaraq iqtisadi inteqrasiyanın güclənməsinə, daha sonra isə texnologiya və transmilli investisiyaların yayılmasına qədər olan mərhələləri əhatə edir.

6. Cazibə modeli nədir və iki ölkə arasındakı ticarətin həcmini müəyyən edən əsas amillər hansılardır? Cazibə modelində istisnalar.

Cazibə modeli beynəlxalq ticarətdə iki ölkə arasındakı ticarətin həcmini izah edən

və təxmin etməyə imkan verən iqtisadi modeldir. Bu model ölkələrin ÜDM-ni və aralarındakı məsafəni əsas götürür . Model Nyutonun cazibə qanununa bənzədiyi üçün belə adlandırılmışdır .

Cazibə modelinin əsas düsturu belədir:

$$T_{ij} = A \times \frac{Y_i \times Y_j}{D_{ij}}$$

Burada A sabit rəqəm, Tij iki ölkə arasındakı ticarətin dəyəri, Yi və Yj ölkələrin ÜDM-i, Dij isə ölkələr arasındakı məsafədir.İki ölkə arasındakı ticarətin həcmini müəyyən edən əsas amillər ölkələrin ÜDM-i və aralarındakı məsafədir. Ölkələrin ÜDM- i nə qədər böyük olarsa, ticarət

həcmi də bir o qədər artır . Məsafə artdıqca isə nəqliyyat xərcləri və əlaqə çətinlikləri yüksəldiyindən ticarət azalır.

İqtisadçılar modelin daha ümumi formasından da istifadə edirlər . Tij = A * Y^a * Y^b>D^c . Bu formada a, b və c əmsalları faktiki ticarət məlumatlarına uyğun olaraq müəyyən edilir . Cazibə modeli ölkələr arasındakı ticarət həcmini təxmin etməklə yanaşı, ticarətdəki fərqləri və anomaliyaları müəyyənləşdirməyə də kömək edir.

Cazibə modelində istisnalar modelin proqnozlaşdırdığı ticarət həcmi ilə faktiki ticarət həcmi arasında fərqlərin yaranmasıdır. Bu fərqlər müxtəlif amillərlə izah olunur. Məsələn, İrlandiyanın ABŞ-la yüksək ticarət həcmi ortaq dil, mədəni yaxınlıq və ABŞ şirkətlərinin İrlandiyada fəaliyyət göstərməsi ilə əlaqədardır. Hollandiya və Belçikanın yüksək ticarət həcmi isə əlverişli coğrafi mövqeləri, Rotterdam və Antverp limanları, həmçinin aşağı nəqliyyat xərcləri ilə bağlıdır.

ABŞ-ın Kanada və Meksika ilə Avropa ölkələrinə nisbətən daha çox ticarət etməsinin əsas səbəblərindən biri coğrafi yaxınlıqdır. Bundan əlavə, bu ölkələr arasında ticarət razılaşmaları mövcud olmuşdur. Tədqiqatlara görə, ölkələr arasındakı məsafə 1% artdıqda ticarət həcmi təxminən 0,7–1% azalır.

Ticarətə təsir edən digər mühüm amillər tariflər , kvotalar, hüquqi məhdudiyyətlər və nəqliyyat xərcləridir . Tariflər idxal mallarına tətbiq olunan gömrük rüsumları, kvotalar idxalın miqdarına qoyulan məhdudiyyətlər , hüquqi məhdudiyyətlər isə malların və xidmətlərin hərəkətini çətinləşdirən qaydalardır.

Cazibə modelində digər mühüm istisna milli sərhədlərin ticarətə təsiridir. Məsələn, Kanada və ABŞ arasında azad ticarət razılaşması olmasına baxmayaraq, Kanada əyalətləri arasında ticarət, adətən, eyni məsafədə yerləşən Kanada və ABŞ regionları arasındakı ticarətdən daha böyükdür. Bu onu göstərir ki, milli sərhədlər ticarət maneələrini tam aradan qaldırmır.

Nəticə olaraq, cazibə modeli ölkələrin iqtisadi ölçüsü və məsafənin ticarətə təsirini izah edir. Lakin mədəni yaxınlıq, coğrafi mövqe, ticarət razılaşmaları, milli sərhədlər və digər ticarət maneələri faktiki ticarət həcminin modelin proqnozundan fərqlənməsinə səbəb ola bilər.

7. Beynəlxalq ticarət ölkələrə hansı əsas faydaları gətirir və bu faydalar hansı amillərlə əlaqədardır?

Beynəlxalq ticarət ölkələr arasında əmtəə və xidmətlərin mübadiləsidir. Onun əsas əhəmiyyəti ölkələrə qarşılıqlı fayda və iqtisadi gəlir gətirməsidir. Ölkələr ticarət vasitəsilə həm öz məhsullarını satır, həm də digər ölkələrdə istehsal olunan məhsul və xidmətlərdən faydalanırlar.

Beynəlxalq ticarətin əsas faydalarından biri ixtisaslaşma və resurslardan səmərəli istifadədir. Ölkələr daha səmərəli istehsal edə bildikləri məhsullara üstünlük verir, digər məhsulları isə idxal edirlər. Hətta bir ölkə bütün məhsulları digər ölkədən daha məhsuldar istehsal edə bilsə belə, beynəlxalq ticarət hər iki ölkəyə fayda gətirə bilər.

Digər fayda ölkələrin bol olduqları resurslardan istifadə etməsidir. Ölkələr malik olduqları kapital, işçi qüvvəsi, torpaq və təbii sərvətlərdən daha səmərəli istifadə edərək məhsul istehsal edir və ixrac edirlər.

Beynəlxalq ticarət həmçinin istehsalın miqyasını genişləndirir və miqyas qənaəti yaradır. Ölkələr daha az çeşiddə məhsul istehsalında ixtisaslaşaraq istehsal həcmini artırır və məhsul vahidinə düşən orta xərcləri azalda bilirlər. Bununla yanaşı, ticarət ölkələrə daha geniş çeşiddə əmtəə və xidmətlərdən faydalanmaq imkanı verir.

Ticarətin digər faydaları beynəlxalq miqrasiya, borcalma, kreditləşmə və maliyyə aktivlərinin mübadiləsi ilə əlaqədardır. Miqrasiya işçi qüvvəsinin ölkələr arasında hərəkətini təmin edir, borcalma və kreditləşmə isə ölkələrə indiki və gələcək iqtisadi imkanlarından faydalanmağa kömək edir. Səhmlər və istiqrazlar kimi maliyyə aktivlərinin beynəlxalq mübadiləsi isə risklərin bölüşdürülməsinə və gəlirlərin qeyri-sabitliyinin azalmasına imkan yaradır.

Bununla belə, beynəlxalq ticarət bütün insanlara eyni dərəcədə fayda gətirməyə bilər. İdxalla rəqabət aparan sahələrdə çalışan işçilər və həmin sahələrə məxsus resursların sahibləri zərər görə bilərlər. Məsələn, xaricdən ucuz tekstil məhsullarının idxalı yerli tekstil sənayesində çalışan işçilərin gəlirlərinin azalmasına səbəb ola bilər. Buna görə də beynəlxalq ticarət ölkənin ümumi gəlirini artırsa da, gəlirlərin ölkə daxilində bölüşdürülməsinə mənfi təsir göstərə bilər.

Nəticə olaraq, beynəlxalq ticarətin faydaları əsasən ölkələrin resurs təminatının fərqli olması, istehsal imkanları, ixtisaslaşma, miqyas qənaəti, əmtəə və xidmət çeşidinin artması, beynəlxalq əmək və kapital hərəkəti, həmçinin risklərin azaldılması ilə əlaqədardır.

8. Beynəlxalq ticarətin strukturu, dəyişən dinamikası haqqında məlumat verin. Beynəlxalq ticarətdə önə çıxan idxal və ixrac olunan məhsulları və ölkələri sadalayın.

Beynəlxalq ticarətin strukturu ölkələrin bir-birinə hansı məhsulları satdığını və hansı məhsulları aldığını, yəni ixrac və idxalın tərkibini göstərir. Ticarətin strukturu ölkələrin təbii resursları, kapitalı, işçi qüvvəsi, texnologiyası və istehsal imkanları ilə əlaqədardır. Məsələn, Braziliya qəhvə, Səudiyyə Ərəbistanı isə neft ixrac edir. Yaponiya avtomobil istehsalı ilə tanınır.

Beynəlxalq ticarətin dinamikası zaman keçdikcə ticarətin həcminin, istiqamətinin və

məhsul tərkibinin dəyişməsidir. Nəqliyyat və kommunikasiya vasitələrinin inkişafı ölkələr arasındakı ticarəti asanlaşdırmışdır. 1840–1914-cü illərdə qloballaşma sürətlə inkişaf etmiş, lakin Birinci Dünya müharibəsi, 1930-cu illərin Böyük Böhranı, İkinci Dünya müharibəsi və proteksionizm beynəlxalq ticarəti zəiflətmişdir. Ticarət əvvəlki səviyyəsinə yalnız 1970-ci illərin əvvəllərində çatmışdır.

Sonrakı dövrdə beynəlxalq ticarətin artmasının əsas səbəblərindən biri istehsalın müxtəlif ölkələr arasında bölünməsidir. Məsələn, elektron məhsulların hissələri Yaponiyada istehsal oluna, həmin məhsullar isə Çində yığıla bilər. Bu, beynəlxalq ticarətin həcmini artırır. Müasir dövrdə isə geosiyasi gərginliklər, sanksiyalar, inflyasiya və qlobal dəyər zəncirlərindəki dəyişikliklər ticarətin inkişafına təsir göstərir. Elektromobillər və tibbi texnologiyalar kimi məhsulların ixracı da artır.

2023-cü ildə ən çox idxal edən ölkələr ABŞ, Çin, Almaniya, Niderland, Böyük Britaniya, Fransa, Yaponiya, Hindistan, Honkonq və Cənubi Koreya olmuşdur. İdxal həcminə görə ABŞ təxminən 3,17 trilyon dollarla, Çin isə 2,56 trilyon dollarla ilk iki yerdə qərarlaşmışdır.

2023-cü ildə dünyada ən çox idxal olunan məhsullar xam neft, mikrosxemlər, avtomobillər, emal olunmuş neft məhsulları, telefonlar, neft qazları, qızıl, dərman preparatları, avtomobil hissələri və kompüterlər olmuşdur.

2023-cü ildə ən çox ixrac edən ölkələr isə Çin, ABŞ, Almaniya, Niderland, Yaponiya, İtaliya, Fransa, Cənubi Koreya, Meksika və Honkonq olmuşdur. Çin təxminən 3,38 trilyon dollarla, ABŞ 2,02 trilyon dollarla, Almaniya isə 1,69 trilyon dollarla ilk üç yerdə qərarlaşmışdır.

ABŞ-ın əsas ticarət tərəfdaşları Kanada, Meksika və Çindir. Son dövrlərdə Hindistan və İndoneziyanın yüksək texnologiyalı məhsulların ixracında rolu da artır.

Nəticə olaraq, beynəlxalq ticarətin strukturu və dinamikası ölkələrin resurslarından, istehsal imkanlarından, texnologiyanın inkişafından, nəqliyyat xərclərindən və siyasi-iqtisadi şəraitdən asılıdır. Beynəlxalq ticarət zaman keçdikcə dəyişir və ölkələr dünya bazarında öz üstünlüklərinə uyğun məhsullar ixrac edib digər məhsulları idxal edirlər.

9. Ticarətə əngəllər: Məsafə, maneələr və sərhədlər. ABŞ-Kanada-Meksika və ABŞ-Aİ ticarət əlaqələri.

Cazibə modeli, ölkələr arasındakı ticarətin həcmini izah edir, lakin həmişə faktiki ticarət göstəricilərinə tam uyğun gəlmir. İki ölkə arasında ticarət modelin proqnozlaşdırdığından çox və ya az olduqda buna səbəb olan amillər araşdırılır.

Məsələn, Hollandiya, Belçika və İrlandiya ABŞ-la cazibə modelinin proqnozlaşdırdığından daha çox ticarət edir. İrlandiyanın ABŞ-la ticarətinin çox olması ortaq dil, mədəni yaxınlıq və ABŞ şirkətlərinin İrlandiyada fəaliyyət göstərməsi ilə əlaqədardır. Hollandiya və Belçikanın ABŞ-la geniş ticarəti isə əsasən əlverişli coğrafi mövqe və aşağı nəqliyyat xərcləri ilə izah olunur. Bu ölkələr Reyn çayının mənsəbinə yaxın yerləşir və mühüm limanlara malikdir. Hollandiyanın Rotterdam, Belçikanın isə Antverp limanı Avropanın əsas ticarət mərkəzlərindəndir.

Məsafə beynəlxalq ticarətə mənfi təsir göstərir. ABŞ Kanada və Meksika ilə Avropa

ölkələrindən daha çox ticarət edir, çünki bu ölkələr ABŞ-a daha yaxındır. Məsafə 1% artdıqda iki ölkə arasındakı ticarət təxminən 0,7–1% azalır. Bunun əsas səbəbləri daşınma xərclərinin artması və insanlar, şirkətlər arasında əlaqələrin çətinləşməsidir. Məsələn, ABŞ-dan Kanadanın Toronto şəhərinə getmək Parisə və ya Tokioya getməkdən daha asandır.

ABŞ, Kanada və Meksika arasında ticarətin geniş olmasının digər səbəbi NAFTA – Şimali Amerika Azad Ticarət Assosiasiyasıadlı ticarət razılaşmasıdır. Bu razılaşma üç ölkə arasında əksər malların tariflər və digər ticarət maneələri olmadan daşınmasına imkan verir. Ticarət razılaşması effektiv olduqda ölkələr arasında ticarətin həcmi cazibə modelinin proqnozlaşdırdığı səviyyədən daha yüksək olmalıdır .

Lakin ticarət razılaşmaları milli sərhədlərin ticarətə təsirini tam aradan qaldırmır. Eyni ölkənin regionları arasında ticarət, adətən, eyni məsafədə yerləşən müxtəlif ölkələrin regionları arasındakı ticarətdən daha çox olur. Məsələn, ABŞ və Kanada arasında azad ticarət razılaşması olmasına, insanların ortaq dildən istifadə etməsinə və sərhədi keçməyin nisbətən asan olmasına baxmayaraq, Kanada əyalətləri arasında ticarət Kanada əyalətləri ilə ABŞ ştatları arasındakı ticarətdən dəfələrlə çoxdur.

Britaniya Kolumbiyası əyalətinin digər Kanada əyalətləri ilə ticarəti, təxminən eyni məsafədə yerləşən ABŞ ştatları ilə ticarətindən daha yüksəkdir. Məsafə artdıqca ölkədaxili ticarət də azalır, lakin yenə də ölkə daxilində ticarət daha geniş olur. İqtisadçıların hesablamalarına görə, ABŞ-Kanada sərhədi ticarətə elə təsir göstərir ki, bu, ölkələrin bir-birindən 1 500–2 500 miluzaqda yerləşməsinə bərabər effekt yaradır.

Nəticə: Beynəlxalq ticarətin həcminə məsafə, nəqliyyat xərcləri, mədəni və dil yaxınlığı, coğrafi mövqe, ticarət razılaşmaları və milli sərhədlər təsir göstərir. Ticarət maneələri azalsa belə, milli sərhədlər ölkələr arasındakı ticarəti məhdudlaşdırmağa davam edir.

10. 2025-ci ildə qlobal əmtəə ticarətinə təsir edən əsas amillər hansılardır və tarif dəyişiklikləri dünya ticarətin in həcminə necə təsir göstərə bilər?

2025-ci ildə qlobal əmtəə ticarətinə təsir edən əsas amillər ABŞ-da idxalın əvvəlcədən artırılması, qlobal iqtisadi şəraitin yaxşılaşması, tarif dəyişiklikləri , neft qiymətlərinin azalması və ticarətlə bağlı qeyri-müəyyənlikdir .

2025-ci ilin birinci rübündə ABŞ-da tariflərin artacağı gözləntisi ilə idxalın həcmi kəskin artmışdır. Şirkətlər tariflər qüvvəyə minməzdən əvvəl daha çox məhsul alaraq ehtiyat toplamışlar. Bu, 2025-ci il üzrə qlobal əmtəə ticarətinin artım proqnozunun 0,9%-ə yüksəlməsinə səbəb olmuşdur. Lakin idxalın əvvəlcədən artırılması gələcək dövrlərdə, xüsusilə 2025-ci ilin ikinci yarısında və 2026-cı ildə idxal tələbinin azalmasına gətirib çıxara bilər.


Digər mühüm amil qlobal makroiqtisadi şəraitin yaxşılaşmasıdır. ABŞ dollarının ucuzlaşmasıinkişaf etməkdə olan ölkələrdə maliyyə şəraitini yaxşılaşdırmışdır. Neft qiymətlərinin azalması isə istehsal xərclərinin aşağı düşməsinə və istehsal yönümlü iqtisadiyyatların inkişafına kömək edə bilər. Bununla yanaşı, neft ixrac edən

ölkələrin gəlirləri və idxal tələbi azala bilər.

Tarif dəyişiklikləri dünya ticarətinə mənfi təsir göstərir. Tariflər idxal olunan mallara tətbiq edilən gömrük rüsumlarıdır. Tariflər artırıldıqda idxal məhsulları bahalaşır, tələbat azalır və ölkələr arasında ticarətin həcmi zəifləyir. ABŞ-ın Çin və Böyük Britaniya ilə razılaşmaları, eləcə də avtomobillərlə bağlı bəzi istisnalar ticarətə müsbət təsir göstərsə də, polad və alüminiuma tətbiq edilən yüksək tariflər və 7 avqustda qüvvəyə minən yeni tariflər ticarəti zəiflətmişdir. Bu tədbirlər ABŞ-ın idxalını və ticarət tərəfdaşlarının ixracını azalda bilər.

Regionlar üzrə ticarət göstəriciləri də fərqlənir. Asiyanın 2025-ci ildə dünya əmtəə ticarətinin artımına ən böyük müsbət töhfəni verəcəyi gözlənilir. Şimali Amerikada ticarətin azalacağı, Avropada isə ticarət göstəricilərinin zəifləyəcəyi proqnozlaşdırılır. Enerji məhsulları ixrac edən regionlarda neft qiymətlərinin düşməsi səbəbindən ticarətə müsbət təsirin azalacağı gözlənilir.

Chart 1: World merchandise trade volume growth, 2019-2026
Index, 2019=100 and annual % change



Note: Trade refers to average of exports and imports. Figures for 2025 and 2026 are projections.
Sources: WTO for historical trade statistics. WTO Secretariat estimates for trade forecasts.

Bundan başqa, tariflərlə bağlı qeyri-müəyyənlik bizneslərin inamına, investisiyalara və təchizat zəncirlərinə mənfi təsir göstərir. Ölkələrin bir-birinə cavab olaraq tarifləri artırması dünya ticarətinə daha ciddi zərər vura bilər. Buna görə Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ölkələr arasında əməkdaşlığın və ticarət sisteminin sabitliyinin qorunmasını vacib hesab edir.

Nəticə: 2025-ci ildə qlobal ticarət proqnozunun yaxşılaşmasına ABŞ-da idxalın əvvəlcədən artırılması və iqtisadi şəraitin yaxşılaşması müsbət təsir göstərmişdir. Lakin yüksək tariflər, ticarət qeyri-müəyyənliyi və gələcək idxal tələbinin azalması dünya ticarətinin həcminin zəifləməsinə səbəb ola bilər.

11. Müqayisəli üstünlüklər prinsipinə əsaslanan Rikardo ticarət modelinin əsas müddəalarını izah edin. Müqayisəli üstünlüklər nəzəriyyəsində İstehsal İmkanaları Əyrisini təsvir edin və ona xas olan xüsusiyyətləri sadalayın.

Müqayisəli üstünlüklər qanunu ingilis iqtisadçısı Devid Rikardo tərəfindən irəli

sürülmüşdür. Bu qanuna görə, ölkələr başqa ölkələrlə müqayisədə daha aşağı alternativ xərclə istehsal etdikləri məhsullar üzrə ixtisaslaşmalı və həmin məhsulları ixrac etməlidirlər . Ölkə hər hansı məhsulun istehsalında mütləq üstünlüyə malik olmasa belə, müqayisəli üstünlüyə sahib olduğu halda beynəlxalq ticarətdən faydalana bilər.

Rikardonun fikrincə, xarici ticarət ölkənin rifahına iki istiqamətdə təsir göstərir. Birincisi, statik təsir nəticəsində istehlakçılar daha çox çeşiddə və miqdarda məhsul əldə edə bilirlər . İkincisi, dinamik təsir nəticəsində qənaət və kapital yığımı artır, bu da iqtisadi artımı sürətləndirir .

Rikardo hesab edirdi ki, beynəlxalq ticarətin əsasında beynəlxalq əmək bölgüsü dayanır. Ölkələr öz resurslarını daha səmərəli istifadə etdikləri sahələrə yönəltdikdə ümumi istehsal artır. Beləliklə , hər bir ölkə müqayisəli üstünlüyə malik olduğu məhsulun istehsalına üstünlük verir və həmin məhsulu ixrac edir.

Daxili və beynəlxalq ticarət arasında fərq istehsal amillərinin hərəkəti ilə izah olunur. Ölkə daxilində əmək və kapital sahələr arasında sərbəst hərəkət edə bilir, lakin Rikardonun modelində istehsal amillərinin ölkələr arasında hərəkət etmədiyi qəbul olunur. Buna görə də ölkələr arasında əmək məhsuldarlığı və alternativ xərclər fərqli olur.

Ticarət şərtləri ölkələr arasında malların hansı qiymət nisbətində dəyişdirildiyini göstərir. Bu nisbət ölkələrdə həmin malların alternativ xərcləri arasında formalaşır. Nəticədə hər iki ölkə müqayisəli üstünlüyə malik olduğu məhsulu ixrac etməklə ticarətdən fayda əldə edə bilər.

Rikardo modelinin əsas fərziyyələri

Rikardonun ticarət modeli aşağıdakı fərziyyələrə əsaslanır:

1. İstehsal yalnız iki məhsul üzrə həyata keçirilir .
2. Yalnız bir istehsal amili – əmək mövcuddur.
3. Əmək ölkə daxilində sərbəst hərəkət edir, lakin ölkələr arasında hərəkət etmir.
4. Əmək məhsuldarlığı sabitdir.
5. İqtisadiyyatda tam məşğulluq mövcuddur.
6. Nəqliyyat xərcləri nəzərə alınmır.
7. Ticarət sərbəstdir, gömrük rüsumları və digər ticarət maneələri yoxdur.
8. Valyuta məzənnəsi sabitdir.

Bu fərziyyələr real iqtisadiyyatın bütün xüsusiyyətlərini əks etdirməsə də, müqayisəli üstünlüklərin mahiyyətini izah etməyə imkan verir .

Alternativ xərc və müqayisəli üstünlük

Alternativ xərc bir məhsulun istehsalını artırmaq üçün digər məhsulun istehsalından nə qədər imtina edilməli olduğunu göstərir. Müqayisəli üstünlük isə ölkənin müəyyən məhsulu başqa ölkəyə nisbətən daha aşağı alternativ xərclə istehsal edə bilməsidir.

Məsələn, ABŞ 10 milyon qızılgül istehsal etmək üçün istifadə etdiyi resurslarla 100 min kompüter istehsal edə bilər. Deməli, ABŞ üçün 10 milyon qızılgülün alternativ xərci 100 min kompüterdir.

Kolumbiyada isə eyni resurslarla 10 milyon qızılgül istehsal etmək əvəzinə cəmi 30 min kompüter istehsal etmək mümkündür. Bu, Kolumbiyada qızılgül istehsalının alternativ xərcinin daha aşağı olduğunu göstərir.


Beləliklə, Kolumbiya qızılgül, ABŞ isə kompüter istehsalı üzrə müqayisəli üstünlüyə malikdir. Kolumbiya qızılgülləri ABŞ-a, ABŞ isə kompüterləri Kolumbiyaya ixrac etdikdə hər iki ölkə ticarətdən faydalanır. Nəticədə resurslardan daha səmərəli istifadə olunur, ümumi istehsal və rifah səviyyəsi artır.

İstehsal İmkanları Əyrisi və onun xüsusiyyətləri

ŞƏKİL 3.1

"Ev"in İstehsal İmkanları Əyrisi


PF xətti şərab istehsalının müəyyən kəmiyyətinə uyğun olan maksimum pendir istehsalını (və əksinə) göstərir.



ŞƏKİL 3.2

"Xaric"in İstehsal imkanları əyrisi

"Xaric"də pendirin vahidinə düşən əmək sərfi "Ev" ilə müqayisədə daha yüksək olduğundan (daha bir funt pendirin istehsalı üçün o daha çox qallon şərabdan imtina etməlidir), onun İstehsal imkanları əyrisi daha dikdir.



İstehsal İmkanları Əyrisi (İİƏ) mövcud resurslardan və texnologiyadan tam və səmərəli istifadə etməklə istehsal edilə bilən iki məhsulun mümkün kombinasiyalarını göstərir.

İstehsal İmkanları Əyrisinin əsas xüsusiyyətləri bunlardır:

1. Məhdud resursları göstərir. Ölkə mövcud əmək və digər resurslarla istənilən qədər məhsul istehsal edə bilməz.
2. Alternativ xərci əks etdirir. Bir məhsulun istehsalını artırmaq üçün digər məhsulun istehsalını azaltmaq lazım gəlir.
3. Əyri üzərindəki nöqtələr səmərəli istehsalı göstərir. Bu nöqtələrdə mövcud resurslardan tam istifadə olunur.
4. Əyrinin daxilindəki nöqtələr resurslardan tam istifadə edilmədiyini göstərir. Məsələn, işsizlik və ya istehsal güclərindən natamam istifadə mövcud ola bilər.
5. Əyridən kənardakı nöqtələr mövcud resurs və texnologiya ilə əldə edilə bilməyən istehsal səviyyəsini göstərir.
6. Əyrinin meyli alternativ xərci göstərir. Bir məhsulun istehsalı artdıqca digər məhsuldan nə qədər imtina edildiyi əyrinin meyli ilə müəyyən olunur.

Rikardonun sadə modelində əmək məhsuldarlığı sabit olduğuna görə İstehsal İmkanları Əyrisi düz xətt formasında göstərilə bilər. Bu halda bir məhsulun istehsalını artırmaq üçün digər məhsuldan imtina edilən miqdar sabit qalır.

Rikardo modelinin üstünlükləri və tənqidləri

Rikardo modelinə əsasən beynəlxalq ticarət resurslardan səmərəli istifadəni, ixtisaslaşmanı, əmək bölgüsünü, məhsulların çeşidinin artmasını və iqtisadi artımı

təmin edir.

Lakin modelin bəzi çatışmazlıqları vardır. O, yalnız əmək amilini nəzərə alır, halbuki real iqtisadiyyatda kapital, torpaq və texnologiya da mühüm rol oynayır. Həmçinin nəqliyyat xərcləri, gömrük maneələri, dəyişən əmək məhsuldarlığı və ölkə daxilində gəlir bölgüsü nəzərə alınmır.

Bu səbəbdən sonrakı dövrlərdə Hekşer-Olin modeli kimi nəzəriyyələr inkişaf etdirilmişdir. Buna baxmayaraq, Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi beynəlxalq ticarətin əsaslarını izah edən mühüm nəzəriyyələrdən biri olaraq qalır.

12) Hekşer-Ohlin ticarət nəzəriyyəsini izah edin, qrafiklə izahınızı əsaslandırın.

XIX əsr boyunca əmək dəyəri nəzəriyyəsi tədricən iqtisadi elmin arsenalından sıxışdırılıb çıxarıldıqca, klassik məktəbin banilərinin davamçıları olan neoklassik iqtisadçılar beynəlxalq ticarəti istehsal faktorları ilə təmin olunma fərqləri vasitəsilə izah etməyə başladılar. Lakin bu istiqamətdə beynəlxalq ticarət nəzəriyyəsində əhəmiyyətli irəliləyiş yalnız XX əsrin birinci yarısında əldə edildi. Ölkələrin ticarət etməsinin yalnız eyni malların istehsalına sərf olunan əmək xərclərinin müqayisəsi ilə məhdudlaşmadığını (Rikardoda olduğu kimi) dərk etmək və köklü olmasa da, yenilik sayılacaq bir yanaşma təklif etmək üçün təxminən 100 illik zaman və iki görkəmli isveçli iqtisadçının – Eli Heckscher və onun tələbəsi Bertil Ohlinin səyləri tələb olundu.

Heckscher–Ohlin teoremi belə bir müddəanı əsaslandırır:

Ölkə nisbətən bol malik olduğu istehsal faktorunun intensiv istifadəsini tələb edən malları ixrac edir, əvəzində isə nisbətən məhdud olduğu istehsal faktorlarının intensiv şəkildə istifadə olunduğu malları idxal edir.

Bu teorem, xüsusilə resurs əsaslı inkişaf mərhələsində olan ölkələr üçün bu gün də aktual hesab olunur. Müasir riyazi iqtisadçılar bu nəzəriyyəni tam formal şəkildə riyazi teorem kimi sübut etmişlər. Sözügedən yanaşma, beynəlxalq ticarətin səbəblərinin daha dərin izahına yönəlmiş və İkinci Dünya müharibəsindən sonra aparılan araşdırmalar nəticəsində dörd əlavə teoremin formalaşmasına gətirib çıxarmışdır.

Heckscher–Ohlin modelinin sonrakı inkişafı – xüsusilə İkinci Dünya müharibəsindən sonra – dörd əlavə teoremin formalaşmasına səbəb oldu ki, bunlar iqtisadi ədəbiyyatda Heckscher–Ohlin modeli çərçivəsində tanınır və

sistemləşdirilir. Bu nəticələr aşağıdakılardır:

1.Rybczynski Teoremi

Bu teoremə əsasən, müəyyən bir malın istehsalında intensiv şəkildə istifadə olunan bir istehsal faktorunun miqdarının artması, digər bütün şərtlər sabit qaldıqda, həmin malın istehsalının mütənasib olaraq artmasına, digər malın istehsalının isə azalmasına səbəb olur. Yəni, bir resursun bolluğunun artması struktur dəyişikliklərinə və istehsal ixtisaslaşmasının dərinləşməsinə səbəb olur. Bu teorem Heckscher–Ohlin modelinin dinamik şəraitlərdə necə işlədiyini izah edir.

2. Stolper–Samuelson Teoremi

Bu teorem göstərir ki, bir malın nisbi qiymətində baş verən dəyişiklik yalnız həmin malın istehsalında intensiv istifadə olunan faktorun nisbi gəlirini artırır, digər faktorun isə gəlirini azaldır. Beləliklə, bu nəticə göstərir ki, beynəlxalq ticarət gəlir bölgüsünü dəyişə bilər. Məsələn, kapital-intensiv malların ixracı ilə məşğul olan ölkədə kapital sahibləri qazanır, əmək qüvvəsi isə nisbətən uduzur. Bu teorem ticarətin sosial nəticələri və bərabərsizlik üzərindəki təsirləri ilə bağlı müzakirələrin əsasını təşkil edir.

3. Factor Price Equalization Teoremi (Faktor Qiymətlərinin Bərabərləşməsi Teoremi)

Bu nəticəyə əsasən, ticarətin genişləndirilməsi nəticəsində istehsal amillərinin qiymətləri – yəni əməkhaqqı və kapitalın gəlirliliyi – ölkələr arasında yaxınlaşır, hətta müəyyən şərtlərdə tam bərabərləşə bilər. Bu, o şərtlə mümkündür ki, ölkələr eyni texnologiyalardan istifadə etsin və ticarət nəqliyyat xərcləri və məhdudiyyətlər olmadan baş versin. Lakin real həyatda bu bərabərləşmə tam deyil, çünki texnoloji fərqlər, bazar strukturları və siyasət amilləri nəticəyə təsir edir.

4. Leontief Paradoksu

Amerikalı iqtisadçı Vasiliy Leontief tərəfindən 1953-cü ildə aparılan empirik araşdırma nəticəsində ABŞ-ın – o dövrdə dünya üzrə kapital baxımından ən zəngin ölkə – əmək-intensiv mallar ixrac etdiyi müşahidə olunmuşdur. Bu nəticə Heckscher–Ohlin teoreminin əksinə idi və "Leontief paradoksu" adı ilə tanındı. Bu paradoks göstərdi ki, real dünyada istehsal faktorlarının keyfiyyəti, texnologiyanın fərqliliyi və ixtisas dərəcəsi kimi amillər sadə faktor bolluğu modelini dəyişdirə və gözlənilən ticarət strukturunu pozula bilər.

Nəticə

Heckscher–Ohlin modeli və onun törəmə teoremləri beynəlxalq ticarətin struktur izahında mühüm yer tutmaqda davam edir. Model göstərir ki, ölkələr istehsalında nisbətən bol olduqları amillərin üstünlüyünü ticarətə daşıyaraq, ixtisaslaşma və resursların effektiv bölgüsü vasitəsilə rifahlarını artıra bilərlər. Eyni zamanda, bu model gəlir bölgüsündə dəyişikliklərə və sosial gərginliklərə də səbəb ola bilər – bu isə dövlət siyasətinin və tənzimləmənin vacibliyini gündəmə gətirir.

HEKŞER- OLİN modeli

Həm geyim, həm də ərzaq kapital və əmək istifadə olunmaqla istehsal olunur. Hər sahədə istifadə olunan resursların miqdarından asılı olaraq, istehsal olunan hər bir məhsulun miqdarı onun istehsal funksiyası ilə tənzimlənir:

QC=QC (KC, LC),

QF=QF (KF, LF).

Burada QC və QF geyim və ərzağın buraxılış miqdarı, KC və LC geyimin istehsalında, KF və LF isə ərzaq istehsalında istifadə olunan kapital və əməyin miqdarını təşkil edir. Ümumiyyətlə, ölkə iki sektor arasında bölünən kapital K və əməyin L sabit təklifinə malikdir.

Biz iki istehsal texnologiyasına aid olan aşağıdakı ifadələrin tərifləri veririk:

aKC = bir yard geyimin istehsalı üçün sərf olunan kapital

aLC = bir yard geyimin istehsalı üçün sərf olunan əmək

aKF = bir kalori ərzağın istehsalı üçün sərf olunan kapital

aLF = bir kalori ərzağın istehsalı üçün sərf olunan əmək

Bu elementlər Rikardo modelində müəyyən edilən göstəricilərə (yalnız əmək üçün) çox yaxındır. Eyni zamanda burada bir əhəmiyyətli fərq var: sözügedən tərifl ərdə məhsulun müəyyən həcminin istehsalına tələb olunan yox, kapital və ya əməyin sərf olunan kəmiyyətindən bəhs olunur. Bunun səbəbi odur ki, iki istehsal amili mövcud olduqda bu elementlərin kombinasiyalarında seçim mövcuddur. Ümumilikdə, bu seçimlər əmək və kapitalın amil qiymətlərindən asılı olacaq.

Gəlin əvvəlcə hər məhsulun yeganə istehsal yolu olduğu xüsusi vəziyyəti araşdıraq. Növbəti rəqəmli nümunəyə baxaq:

Bir yard geyimin istehsalı 2 əmək- saat və 2 maşın-saatın kombinasiyasını tələb edir.

Ərzaq istehsalı daha çox avtomatlaşdırılmış olduğu üçün bir kalori ərzağın istehsalı cəmi 1 əmək-saat və 3 maşın-saat tələb edir.


Beləliklə , bütün vahid qoyuluş sərfi aşağıdakı səviyyədə tənzimlənib: aKC=2; aLC=2; aKF=3; aLF=1, əməyin kapitala və ya əks istiqamətdə əvəzolunması üçün imkan yoxdur. Fərz edək ki, həmin ölkənin iqtisadiyyatı 3 000 maşın-saat və 2 000 əmək-saat resurslarına malikdir. İstehsal amillərinin əvəz oluna bilmədiyi bu xüsusi halda iqtisadiyyatın istehsal imkanları əyrisini kapital və əmək resurslarına olan məhdudiyyətləri nəzərə alaraq müəyyənləşdirmək olar. QC yard geyimin istehsalı 2QC=aKC * QC maşın-saat və 2QC=aLC * QC əmək-saat tələb edir.

Eynilə, QF kalori ərzağın istehsalı 3QF=aKF * QF maşın-saat və 1QF=aLF * QF əmək-saat tələb edir. Geyim və ərzaq istehsalına birlikdə sərf olunan maşın-saatların miqdarı ümumi kapital təklifini üstələyə bilməz:

aKC* QC+aKF*QF … K və ya 2QC+3QF … 3 000.

Bu, kapitala olan resurs məhdudiyyətidir . Eynilə əməyə olan resurs məhdudiyyəti istehsala sərf olunan əmək-saatların miqdarının ümumi əmək təklifindən artıq ola bilmədiyini bildirir :

aLC* QC+aLF*QF … L və ya 2QC+3QF … 2 000



ŞƏKİL 5.1

Amillər əvəz olunmadıqda istehsal imkanları əyrisi: Rəqəmli nümunə

Kapitalın əməklə və əks istiqamətdə əvəzolunması mümkün deyilsə, amil nisbətləri modelindəki istehsal imkanları əyrisi iki resurs məhdudiyyəti ilə tənzimlənəcək: iqtisadiyyat mövcud olan əmək (2000 əmək-saat) və kapitalın (3000 maşın-saat) təklifindən artıq istifadə edə bilməz. Beləliklə, istehsal imkanları əyrisi bu cədvəldəki qırmızı xətt ilə təmsil olunur.
1 nöqtəsində iqtisadiyyat ərzaq istehsalında ixtisaslaşır və bütün əmək-saatlardan istifadə edilmir. 2 nöqtəsində iqtisadiyyat gevim istehsalında ixtisaslaşır və bütün mövcud olan maşın-saatlar istifadə olunmur.
3 nöqtəsində isə iqtisadiyyatın bütün əmək və kapital resursları məşğuldur. Bu istehsal imkanları əyrisinin vacib cəhəti gevimin ərzaq ilə ifadə olunan alternativ xərcinin sabit olmamasıdır: istehsal kombinasiyasını gevimə doğru dəyişəndə o, 2/3-dən 2-dək qalxır.

13) Leontief paradoksu nədir və bu paradoks Heckscher-Ohlin teoreminin hansı fərziyyəsini şübhə altına almışdır?

Leontief paradoksu və onun Heckscher–Ohlin teoreminin fərziyyələrinə təsiri

Leontief paradoksu 1953-cü ildə iqtisadçı Vasili Leontiyev tərəfindən Heckscher–Ohlin nəzəriyyəsinin yoxlanılması zamanı aşkar edilmişdir.

Heckscher–Ohlin nəzəriyyəsinə görə, kapitalı bol olan ölkələr kapitaltutumlu məhsulları ixrac etməli, əmək ehtiyatları bol olan ölkələr isə əməktutumlu məhsulları ixrac etməlidirlər . ABŞ kapitalı bol ölkə olduğu üçün onun

kapitaltutumlu məhsullar ixrac etməsi gözlənilirdi. Lakin Leontiyevin araşdırması göstərdi ki, ABŞ-ın idxalı onun ixracından daha kapitaltutumlu olmuşdur. Bu nəticə nəzəriyyəyə zidd olduğu üçün Leontief paradoksu adlandırılmışdır.

Bu paradoksu izah etmək üçün bir neçə səbəb irəli sürülmüşdür. Birincisi, əmək qüvvəsinin ixtisas səviyyəsi nəzərə alınmalıdır. ABŞ ixtisaslı işçi qüvvəsi ilə zəngin olduğuna görə əmək yalnız işçilərin sayı ilə ölçülməməlidir. İkincisi, istehlakçı zövqləri ölkələr arasında fərqlənə bilər və bu fərqlər idxal və ixraca təsir göstərə bilər. Üçüncüsü, ölkələrin kapital və əmək ehtiyatları ilə təminatını ölçmək üçün müxtəlif üsullardan istifadə oluna bilər. Dördüncüsü, faktor inversiyası baş verə bilər, yəni eyni məhsul bir ölkədə əməktutumlu, digər ölkədə isə kapitaltutumlu ola bilər. Nəhayət, texnologiya fərqləri də ticarət istiqamətinə təsir göstərə bilər.

Nəticə olaraq, Leontief paradoksu Heckscher–Ohlin nəzəriyyəsinin ölkələrin istehsal amilləri ilə təminatının ixrac və idxalı müəyyən etməsi fikrini şübhə altına almışdır. Xüsusilə, istehlakçı zövqlərinin ölkələr üzrə eyni olması, istehsal amillərinin təminatının ölçülməsi və faktor inversiyası ilə bağlı fərziyyələrin hər zaman doğru olmaya biləcəyini göstərmişdir.

14) Ticarətdən kim qazanır və itirir ? stolper-samuelson teoremindən istifadə edərək cavablandırın.

Stolper–Samuelson teoremi 1941-ci ildə Pol Samuelson və Volfqanq Stolper tərəfindən araşdırılmışdır. Bu teorem beynəlxalq ticarətin ölkə daxilində müxtəlif istehsal faktorlarının sahiblərinin gəlirlərinə necə təsir etdiyini izah edir.

Stolper–Samuelson teoreminin əsas mahiyyəti ondan ibarətdir ki, bir məhsulun qiyməti artdıqda, həmin məhsulun istehsalında daha intensiv istifadə olunan istehsal faktorunun qiyməti və gəliri artır. Digər istehsal faktorunun qiyməti və gəliri isə azala bilər. İstehsal faktorlarına əmək və torpaq, onların qiymətlərinə isə əməkhaqqı və torpaq icarəsi daxildir.

Məsələn, fərz edək ki, X məhsulu əmək tutumlu, Y məhsulu isə torpaq tutumludur. X məhsulunun qiyməti artdıqda onun istehsalı daha sərfəli olur. Buna görə əməyə tələbat və əməkhaqqı artır, torpağın qiyməti olan icarə haqqı isə azala bilər. Bu halda əmək sahibləri, yəni işçilər qazanır, torpaq sahibləri isə zərər görə bilərlər.

Əksinə, Y məhsulunun qiyməti artdıqda, torpaqdan daha intensiv istifadə edildiyi üçün torpaq sahiblərinin gəliri arta, əməkhaqqı isə azala bilər. Bu, məhsulun qiymətinin dəyişməsinin istehsal faktorlarının gəlirlərinə təsir etdiyini göstərir.

Məhsulun qiymətinin artmasına ixrac məhsuluna tələbatın yüksəlməsi və ya idxal olunan məhsula gömrük rüsumunun tətbiqi səbəb ola bilər. Belə dəyişikliklər məhsulların nisbi qiymətlərinə və nəticədə istehsal faktorlarının gəlirlərinə təsir göstərir.

Nəticə olaraq, Stolper–Samuelson teoreminə görə, ticarətdən qazananlar qiyməti artan məhsulun istehsalında intensiv istifadə olunan faktorun sahibləri, itirənlər isə digər istehsal faktorunun sahibləri ola bilər. Deməli, beynəlxalq ticarət ölkənin ümumi rifahını artıra bilsə də, ölkə daxilində gəlirlərin qeyri-bərabər


bölüşdürülməsinə səbəb ola bilər.

15) Hekşer-Ohlin və Rikardo modelinin İİƏ-nin müqayisəli təhlilin verin, qrafiklərlə cavabınızı dəstəkləyin.

1. Rikardo modeli

Rikardo modelinə görə, beynəlxalq ticarətin əsas səbəbi ölkələr arasında əmək məhsuldarlığının fərqli olmasıdır. Ölkələr istehsalında alternativ xərci daha aşağı olan məhsul üzrə ixtisaslaşır və həmin məhsulu ixrac edirlər. Bu modeldə əsas istehsal amili əmək hesab olunur. Əmək ölkə daxilində hərəkət edə bilər, lakin ölkələr arasında sərbəst hərəkət etmir. Buna görə də, bir ölkə bütün məhsulları digər ölkədən daha az səmərəli istehsal etsə belə, müqayisəli üstünlüyə malik olduğu məhsul üzrə ixtisaslaşaraq beynəlxalq ticarətdən faydalana bilər.


Rikardo modelinin qrafiki istehsal imkanları sərhədini göstərir. Bu sərhəd düz xətt formasındadır, çünki modeldə alternativ xərclər sabit qəbul edilir.



2. Hekşer–Olin modeli

Dövlət beynəlxalq ticarəti tənzimləmək üçün iki əsas ticarət siyasətindən istifadə edir: liberal (sərbəst) ticarət siyasəti və proteksionist ticarət siyasəti. Bu siyasətlər dövlətin bazara müdaxilə səviyyəsinə, qiymətlərə, istehsalçılara və istehlakçılara təsirinə görə fərqlənir.

1. Liberal (sərbəst) ticarət siyasəti

Liberal ticarət siyasəti beynəlxalq ticarətdə dövlət müdaxiləsinin minimuma endirilməsini, tarif və qeyri-tarif maneələrinin azaldılmasını və ya tamamilə ləğv edilməsini nəzərdə tutur.

Bu siyasətdə bazarda qiymətlər dünya bazarındakı tələb və təklif əsasında formalaşır. Daxili bazarda qiymət dünya qiyməti (PW) səviyyəsində olur. Xarici rəqabət artdığı üçün məhsulların qiyməti aşağı düşür və istehlakçılar daha ucuz məhsul əldə edirlər.

Liberal siyasətin əsas nəticələri bunlardır: istehlakçıların rifahı və izafi faydası artır, beynəlxalq rəqabət güclənir, resurslardan daha səmərəli istifadə olunur və ümumi milli rifah yüksəlir. Xüsusilə kiçik ölkələr üçün bu siyasət daha faydalıdır. Lakin mənfi tərəfi odur ki, zəif yerli istehsalçılar güclü xarici şirkətlərlə rəqabət apara bilməyərək istehsalı azaltmağa məcbur olurlar.

2. Proteksionist ticarət siyasəti

Proteksionist ticarət siyasəti yerli istehsalçıları xarici rəqabətdən qorumaq və daxili istehsalı inkişaf etdirmək məqsədilə dövlətin müxtəlif məhdudlaşdırıcı tədbirlər həyata keçirməsidir.

Bu siyasətin əsas alətləri üç qrupa bölünür:

1. Tarif alətləri: İdxal mallarına gömrük rüsumlarının tətbiq edilməsi (ad valorem, spesifik və kombinə edilmiş rüsumlar).

2. Kəmiyyət məhdudiyyətləri: İdxal və ixrac kvotaları, lisenziyalaşdırma və könüllü ixrac məhdudiyyətləri.

3. Gizli və maliyyə proteksionizmi: Texniki maneələr, dövlət satınalmalarında yerli məhsullara üstünlük verilməsi, subsidiyalar, ixrac kreditləri və digər maliyyə dəstəyi tədbirləri.

Proteksionist siyasət tətbiq edildikdə məhsulun daxili bazardakı qiyməti dünya qiymətindən yuxarı qalxır (PT və ya PQ). Bunun nəticəsində yerli istehsal artır, istehlak isə azalır.

Bu siyasət yerli istehsalçıların qazancını artırsa da, istehlakçıların izafi faydasını azaldır. Çünki istehlakçılar eyni məhsulu daha baha almağa məcbur olurlar.

Qiymətlər və istehlakçı rifahı: Liberal siyasətdə qiymətlər aşağı olur və istehlakçıların alıcılıq qabiliyyəti artır. Proteksionist siyasətdə isə qiymətlər yüksəlir, istehlakçıların alıcılıq qabiliyyəti və izafi faydası azalır.

İstehsalçıların qazancı: Liberal siyasətdə xarici rəqabət yerli istehsalçıların bazar payını və qazancını azalda bilər. Proteksionist siyasətdə isə yerli istehsalçılar xarici rəqabətdən qorunur, onların istehsal həcmi və qazancı artır.

Dövlət gəlirləri: Liberal siyasətdə idxal rüsumları olmadığı üçün dövlət gömrük tariflərindən gəlir əldə etmir. Proteksionist siyasətdə isə dövlət idxal rüsumlarından büdcəyə gəlir əldə edir. Lakin ixrac subsidiyaları və kreditləri dövlət büdcəsindən əlavə xərclər tələb edir.

İqtisadi səmərəlilik və milli rifah: Liberal siyasət resursların daha səmərəli bölüşdürülməsinə və ümumi rifahın artmasına şərait yaradır. Proteksionist siyasət isə istehsal və istehlak təhrifləri yaradır, nəticədə iqtisadi səmərəlilik azalır. Kiçik ölkələrdə proteksionizm ümumi milli rifahı azaldır. Böyük ölkələrdə isə ticarət şərtlərindən əldə olunan qazanc səmərəlilik itkilərindən çox olarsa, ümumi rifah arta bilər. Lakin bu, digər ölkələrə mənfi təsir göstərə və ticarət müharibələrinə səbəb ola bilər.

27) Xarici ticarət siyasətinin mahiyyəti, məqsədləri və əsas formaları barədə yazın.Xarici ticarət siyasəti — dövlətin müəyyən prioritetlərə nail olmaq üçün beynəlxalq ticarət sahəsində işləyib hazırladığı və həyata keçirdiyi tənzimləmə tədbirlərinin məcmusudur.

Dövlət bu siyasət vasitəsilə firmaların və ev təsərrüfatlarının xarici iqtisadi fəaliyyətini balanslaşdırır. Bununla da daxili bazarın dünya bazarı ilə qarşılıqlı əlaqəsini nizamlayır.2. Xarici Ticarət Siyasətinin MəqsədləriDövlətin beynəlxalq ticarət sahəsində yönəldiyi əsas məqsədlər bunlardır:• Sabit iqtisadi artım və rifah: Adambaşına düşən məhsul


istehsalını artırmaq və vətəndaşların rifah səviyyəsini yüksəltmək.• Daxili istehsalın müdafiəsi: Yerli istehsalçıları və daxili bazarı arzuolunmaz xarici rəqabətdən qorumaq (idxalla bağlı tənzimləmələr).• İxracın təşviqi: Milli ixracatçılara daha çox məhsul ixrac etməyə kömək etmək və yerli malları beynəlxalq bazarda rəqabətqabiliyyətli etmək.• İqtisadiyyatı böhrandan çıxarmaq: Ümumi tənəzzül və ya böhran vəziyyətlərində xarici ticarəti stimullaşdırmaq.• Ətraf mühitin və keyfiyyətin qorunması: Ekologiyanı çirkləndirən malların idxalını yüksək vergilərlə cəzalandırmaq və ya qadağan etmək.• Ticarət və tədiyə balansının tarazlaşdırılması: Ölkənin idxal-ixrac axınlarını tənzimləmək.Beynəlxalq ticarətin dövlət tərəfindən tənzimlənməsi müxtəlif formalarda həyata keçirilə bilər: • Tək tərəfli (unilateral) – Dövlətin ticarət partnyorları ilə razılaşmadan və ya məsləhətləşmədən öz siyasətini tətbiq etməsidir. Adətən bu addımlar digər ölkələrin analoji hərəkətlərinə cavab olaraq atılır və tərəflər arasında siyasi gərginlik yaradır (məsələn, müəyyən mallara rüsumların tətbiqi, idxala kvotaların qoyulması və s.). • İkitərəfli (bilateral) – Ticarət siyasətinin tərəfdaş ölkələrlə razılaşdırılmasıdır. Tərəflər qarşılıqlı razılaşma əsasında konvensional rüsumlar tətbiq edə, markalanma və qablaşdırma üzrə texniki tələbləri razılaşdıra, keyfiyyət sertifikatlarının qarşılıqlı tanınması haqqında razılığa gələ bilərlər. • Çoxtərəfli (multilateral) – Ticarət siyasətinin çoxtərəfli razılaşmalar vasitəsilə tənzimlənməsidir. Məsələn, Tariflər və Ticarət üzrə Ümumi Saziş (GATT), Avropa İttifaqı ölkələrinin ticarət sahəsindəki razılaşmaları və s.

28) İxrac subsidiyalarının təsirlərini qrafik vasitəsi ilə göstərin və izahını verin. Bu zaman kimlər qazanır, kimlər uduzur?

İxrac subsidiyası əmtəəni xarici ölkəyə satışa çıxaran şirkət və ya şəxsə olan ödənişdir. Tarif kimi, ixrac subsidiyası da ya xüsusi (bir vahid üzrə müəyyən məbləğ), ya da ad valorem (ixrac olunan əmtəələrin dəyərinə nisbətən) ola bilər. Dövlət ixrac subsidiyasını təklif etdikdə ixracatçılar daxili qiymətin xaricdəkini üstələdiyi məbləğin subsidiya həcmini ötməyənə qədər əmtəəni ixrac etməyə davam edəcəklər. İxrac subsidiyasının qiymətlərə təsirləri tarifinkilərin tam əksidir (Şəkil 9.11).

İxrac edən ölkədə qiymət PW-dən PS,-dək artır, lakin idxal edən ölkədə PW-dən PS , -dək düşdüyünə görə qiymət artımı subsidiya həcmindən azdır. İxrac edən ölkədə istehlakçılar zərər çəkir, istehsalçılar qazanır, hökumət isə subsidiyaya vəsait ayırmalı olduğundan itkilərə məruz qalır. İstehlakçıların itkisi a + b; sahəsini, istehsalçıların qazancı a + b + c; sahəsini, dövlətin subsidiya xərci (subsidiya həcminin ixrac həcminə hasilinin nəticəsi) isə b + c + d + e + f + g. Sahəsini təşkil edir. Beləliklə, xalis rifah itkisi b + d + e + f + g. Sahəsinə bərabərdir. Bun- lardan b və d tarifin səbəb olduğu istehlak və istehsal təhrifi xərclərini əks etdirir. Bundan əlavə, tarifdən fərqli olaraq ixrac subsidiyası ixracın xarici bazardakı qiymətini PW -dən PS .-dək endirməsi ucbatından ticarət


şərtlərini pisləşdirir. Bu, ticarət şərtlərindən əlavə e + f + g, itkisinə gətirib çıxarır (sonuncusu sub- sidiya ilə ixrac olunan əmtəənin kəmiyyətinin PW – P*S -ə vurulmasının nəticəsinə bərabərdir). Beləliklə, ixrac subsidiyalarının xərcləri faydalarını birmənalı olaraq üstələyir.




29) İdxal kvotası və idxal rüsumunun təsirlərini müqayisəli şəkildə qrafiklərdən istifadə etməklə izah edin.

Tarif və kvota qeyri-ekvivalentliyiTariflə kvota arasında iqtisadi təsirlər baxımından müəyyən fərqlər mövcuddur. Bu fərqlər əsasən gəlir effektində, idxalın həcminə və daxili qiymətlərə təsirində özünü göstərir. Xüsusilə daxili tələbatın artması və ya azalması zamanı bu iki vasitənin nəticələri fərqlənir.1. Gəlir effektiİdxal tarifləri tətbiq edildikdə, xaricdən gətirilən məhsula vergi qoyulur. Bu zaman istehlakçılar məhsulu daha yüksək qiymətə alırlar və onların gəlirlərinin bir hissəsi dövlət büdcəsinə keçir. Beləliklə, tarifin yaratdığı gəlir dövlət büdcəsinə daxil olur.Kvota tətbiq edildikdə isə vəziyyət fərqli ola bilər. Əgər dövlət idxal hüququnu idxalçılara pulsuz verirsə, idxalçılar məhsulu aşağı dünya qiyməti ilə ((Pw)) alıb, kvotanın yaratdığı yüksək daxili qiymətə sata bilirlər. Nəticədə yaranan əlavə gəlir dövlətə deyil, idxalçılara çatır. Bu əlavə gəlir kvota rentası adlanır.Dövlətin də həmin gəliri əldə etməsi üçün idxal icazələrini hərrac yolu ilə satmaq mümkündür. Bu zaman icazələrin satışından əldə olunan vəsait dövlət büdcəsinə daxil olur. Əgər icazələr bazar qiymətinə satılarsa, kvotadan yaranan əlavə gəlir dövlətə keçə bilər.2. Daxili tələbat artdıqda tarif və kvotanın təsiriİdxal olunan məhsula daxili tələbat artdıqda tarif və kvota fərqli nəticələr yaradır.Kvota şəraitində dövlət idxalın miqdarını müəyyən həddə məhdudlaşdırır. Tələbat artsa da, idxalın həcmi dəyişmir. Buna görə məhsula olan əlavə tələbat daxili qiymətin yüksəlməsinə səbəb olur. Qiymət artdıqca

yerli istehsal genişlənə bilər, lakin yerli istehsal xarici istehsaldan daha baha başa gəldiyi üçün bu vəziyyət istehlakçılara zərər vurur.Tarif şəraitində isə tələbat artdıqda idxalın həcmi arta bilər. Çünki tarif idxalı tam sabit həcmdə saxlamır, yalnız ona vergi tətbiq edir. Bu şəraitdə qiymət sabit qalır, idxal artır və daha səmərəli xarici istehsaldan istifadə etmək mümkün olur. Nəticədə istehlakçılar fayda əldə edirlər.Beləliklə, məhsula daxili tələbat artdıqda tarif kvotaya nisbətən daha optimal ticarət siyasəti vasitəsi hesab olunur. Çünki kvota idxalı sabit saxlayaraq qiymətin artmasına, tarif isə idxalın artmasına imkan verir.3. Daxili tələbat azaldıqda tarif və kvotanın təsiriDaxili tələbat azaldıqda bu iki vasitənin təsiri əks istiqamətdə dəyişir. Məsələn, tələbat əyrisinin ((D_d)) sola sürüşdüyünü düşünək.Kvota şəraitində idxalın miqdarı sabit qalır. Tələbat azaldığı üçün daxili bazarda qiymət aşağı düşür. Bu isə istehlakçılar üçün faydalıdır.Tarif şəraitində isə qiymət sabit qalır, lakin məhsula tələbat azaldığı üçün idxalın həcmi də azalır. Bu vəziyyətdə istehlakçılar kvota şəraitindəki qiymət azalmasından faydalana bilmirlər.Buna görə daxili tələbat azaldıqda kvota tariflə müqayisədə daha optimal hesab olunur. Çünki kvota şəraitində qiymət azalır, tarif şəraitində isə qiymət sabit qalır.4. Kvota və tarifin tətbiqi və bazara təsiriİdxal kvotası inzibati baxımdan tarif siyasətindən daha asan idarə oluna bilər. Kvotaları fövqəladə hallarda daha tez tətbiq etmək mümkündür. Tariflərin tətbiqi isə adətən parlament müzakirəsini tələb edir.Bununla yanaşı, kvotanın mənfi tərəfləri də vardır. İdxalın məhdudlaşdırılması xarici istehsalçıların daxili bazardakı rəqabətini zəiflədir. Yerli istehsalçılar idxalın kvota ilə məhdudlaşdırıldığını bildikdə, tələbat kifayət qədər yüksək olduğu halda qiymətləri süni şəkildə artıra bilərlər. Bu isə daxili bazarda Monopoliyalaşmaya səbəb ola bilər. Belə şəraitdə tariflə kvota arasındakı iqtisadi nəticələrin fərqi daha aydın görünür.



Şəkil 9.9 idxal edən ölkənin üzləşdiyi xərc və faydalarını göstərir. Tarif yerli qiyməti PW-dən PT-dək qaldırsa da, xarici ixrac qiymətini PW-dən PT-dək azaldır. Yerli istehsal S 1-dən S 2-dək artsa da, yerli istehlak D1-dən D2.dək düşür. Müxtəlif qrupların üzləşdiyi xərc və faydalar a, b, c, d və e ilə nişanlanan beş ərazinin sahələri kimi təqdim oluna bilər.




Şəkil 9.14 xam şəkər bazarında kvotalı və kvotasız hallarda tarazlığı nümayiş edir. Həmin şəkildə ABŞ-ın xam şəkərin dünya bazarında “kiçik” olduğu və beləliklə, kvotanın ləğvinin dünya qiymətinə böyük təsir göstərməyəcəyi fərz olunur. Onda ABŞ-dakı qiymət həmin sabit dünya qiymətinə PW. Bərabər olacaq. Qiymət belə olduqda ABŞ-da şəkər istehsalı S1, istehlakı isə D1. Olacaq. Şəkərin idxalı D1 – S1. Təşkil edəcək. ABŞ-ın şəkər kvotası isə idxalı Q səviyyəsinədək azaldacaq. Yaranan artıq tələb ABŞ-dakı şəkər qiymətini yuxarıya doğru aparır. Qiymət artımı, öz növbəsində, istehlakın D2-dək azalması və istehsalın S2.-dək artması ilə nəticələnir. ABŞ-ın tarazlıq qiyməti PQ azaldılmış şəkər idxalı D2 – S2 kvotanın Q səviyyəsi ilə bərabərləşəndə nail olunur. Qiymət fərqi olan PQ – PW kvotanın tarif ekvivalenti adlanır, çünki belə tarif şəkər qiymətinin eyni davranışına səbəb olaraq istehsal və istehlak göstəricilərinin eyni səviyyəyə çatması ilə nəticələnərdi. İdxal kvotasının rifah effektləri a, b, c, və d sahələri

30) Avropanın ümumi kənd təsərüffatı siyasəti (CAP)-nin ixrac subsidiyası proqramına çevrilmə prosesini izah edin. Cavabınızı qrafiklə dəstəkləyin.

1957-ci ildə Qərbi Avropanın altı ölkəsi Almaniya, Fransa, İtaliya, Belçika və Lük- semburq o vaxtdan bəri Avropa dövlətlərinin əksəriyyətini tədricən birləşdirmiş Avropa İqtisadi Məkanını təsis etmişdilər. Hazırda Avropa İttifaqı (Aİ) adla- nan bu qurumun iki ən böyük effekti ticarət siyasəti ilə bağlı olub. Birincisi, Avropa İttifaqının üzv ölkələri bir- birinə qarşı bütün tarifləri ləğv edərək göm- rük ittifaqını yaradıblar. İkincisi, Avropa İttifaqının kənd təsərrüfatı siyasəti mühum bir ixrac subsidiyaları proqramına çevrilmişdir. Avropa İttifaqının Ümumi Kənd Təsərrüfatı Siyasəti (CAP) ixrac subsidiyası kimi deyil, kənd təsərrüfatı məhsullarının qiymətlərinin müəyyən dəstəklənmiş səviyyəsindən aşağı düşdükdə onların Avropa İttifaqı tərəfindən alınmasını təmin edərək Avropa fermerləri üçün yüksək qiymətlərə zəmanət vermək cəhdindən başlamışdır. Bu siyasətin külli miqdarda idxalla nəticələnəcəyinin qabağını almaq üçün onu əvvəlcədən Avropa və dünya kənd təsərrüfatı qiymətləri arasındakı fərqi ödəyən tarif müşayiət edirdi. Amma 1970-ci illərdən bəri Avropa İttifaqının təyin etdiyi dəstəkli qiymətlər o qədər yüksək olublar ki, azad ticarət rejimində kənd təsərrüfatı məhsullarının əksəriyyətini idxal etməli olacaq. Avropa öz istehlakçılarının tələbindən daha çox istehsal etməyə başlamışdır. Nəticədə Avropa İttifaqı böyük miqdarda qida məhsullarını alıb ehtiyat yığmaq məcburiyyəti ilə qarşılaşmışdır. Məsələn, 1985-ci ilin sonunadək Avropa ölkələri 780 min ton mal əti, 1,2 milyon ton kərə yağı və 12 milyon ton buğda yığmalı olmuşdur.

Bu ehtiyatların məhdudiyyətsiz yığılmasının qabağını almaq məqsədilə Avropa İttifaqı artıq təklifi satmağı hədəf tutan ixrac subsidiyası siyasətinə keçmişdir. Şəkil 9.12 CAP-ın necə işlədiyini göstərir. Təbii ki, o, tamamilə Şəkil 9.11-dəki ixrac subsidiyası kimidir; fərq ondan ibarətdir ki, azad ticarət rejimində Avropa idxalçı rolunu oynayacaqdı. Dəstəkli qiymət nəinki onun olmadığı halda yara- nacaq dünya qiymətində, həm də idxal olmadıqda belə tələb və təklifi bərabərləşdirəcək qiymətdən yuxarı səviyyədə müəyyənləşdirilir. Yaranan artıq təklifi ixrac etmək üçün Avropa və dünya qiymətləri arasındakı fərqi ödəyən ixrac subsidiyası verilir. Subsidiyalaşan ixrac dünya qiymətlərini daha da endirib tələb olunan subsidiyanın məbləğini artırmağa meyillidir. Bu yaxınlarda aparılmış bir tədqiqat subsidiyadan Avropa istehlakçılarına dəyən zərərin fermerlərin aldığı faydanı təxminən 30 milyard ABŞ dollarına (21,5 milyard avro) qədər üstələdiyini təxmin etmişdir.2 CAP-ın Avropa istehlakçıları və vergi ödəyicilərini uğratdığı əhəmiyyətli xalis xərclərə rəğmən, fermerlərin Aİ-dəki siyasi gücü o qədər böyükdür ki, proqrama müdaxilə cəhdləri böyük çətinliklərlə üzləşir. Təzyiqin bir mənbəyi Avropa ixrac subsidiyalarının onların öz ixracının qiymətini aşağı olmasından şikayət edən ABŞ və digər qida ixracatçısı olan ölkələr olub. CAP-ın büdcə üçün fəsadları da narahatçılıq doğurub: 2013-cü ildə CAP Avropa vergi ödəyicilərini 65 milyard dollarlıq (59 milyard avro) xərcə uğratmışdır. Bu rəqəmə qida istehlakçılarının üzləşdiyi bilavasitə xərclər daxil deyil. Avropa fermerlərinə ayrılan dövlət subsidiyaları onların ümumi istehsal miqdarının təxminən 19 faizini təşkil edir, bu da ABŞ-ın müvafiq göstəricisindən (9,4%) iki dəfə çoxdur (ABŞ kənd təsərrüfatı subsidiyaları daha spesifik olaraq müəyyən qrup bitkiləri hədəf tutur.) Avropa kənd təsərrüfatı siyasətinin son islahatları fermerlərə dəstək

verməyə davam edərək qiymət dəstəyinin səbəb olduğu stimul təhriflərini azaltmaq cəhdini özündə əhatə edir. Siyasətçilər öz planlarını həyata keçirə bilsələr, fermerlər daha çox, nə qədər istehlak etdiklərindən asılı olmayan, birbaşa ödənişlər almağa başlayacaqlar ki, bu da kənd təsərrüfatı məhsullarının qiymətlərini endirməli və istehsalı azaltmalıdır.



31. Azad ticarət üçün siyasi arqumentləri sadalayın.

Azad ticarət üçün siyasi arqument o faktdan irəli gəlir ki, prinsipcə daha yaxşı siyasətlər mövcud olsa da, azad ticarətə riayət etməyə siyasi iradə praktiki baxımdan faydalı ola bilər. İqtisadçılar tez-tez iddia edirlər ki, real həyatda ticarət siyasətində ümummilli xərc və fayda məsələləri yox, xüsusi maraqlar hökmranlıq edir. İqtisadçılar həm də bəzən nəzəriyyədə xüsusilə seçilmiş tarif və ixrac subsidiyalarının kombinasiyasının milli rifahı artıra bildiyini qeyd edirlər. Amma reallıqda mürəkkəb ticarət intervensiyası proqramını həyata keçirməyə cəhd edən hər hansı bir dövlət agentliyi böyük ehtimalla maraq qrupları tərəfindən zəbt olunaraq gəlirin siyasi təsiri olan sahələrin xeyrinə bölüşdürülməsi vasitəsinə çevriləcək. Bu arqument həqiqi olduğu halda istisnasız azad ticarəti müdafiə etmək daha düzgün ola bilər, halbuki sırf iqtisadi nöqteyi-nəzərdən o bəzən ən yaxşı siyasət olmaya da bilər.

Əvvəlki bölümdə sadalanan üç arqument əksər beynəlxalq iqtisadçıların (xüsusilə ABŞ-dan olanların) ənənəvi baxışlarını əks etdirir:

1. Azad ticarətdən çəkinməyin ənənəvi üsullarla ölçülən xərcləri böyükdür.

2. Azad ticarətin proteksionist siyasətin xərclərini çoxaldan digər faydaları da mövcuddur.
3. Azad ticarətdən çəkinmənin dərin düşünülmüş tədbirlərinin həyata keçirilməsinə bütün cəhdləri siyasi proses tərəfindən təhrif olunacaq.

Buna baxmayaraq, azad ticarətdən çəkinmənin lehinə də intellektual baxımdan dürüst arqumentlər mövcuddur və bunlar da kifayət qədər diqqətəlayiqdir.

Azad ticarətin əleyhinə milli rifah arqumentləri tarif, idxal kvotaları və digər ticarət siyasəti tədbirlərinin əksəriyyəti ilk növbədə xüsusi maraq qruplarının qazanclarının qorunması məqsədilə tətbiq olunur. Eyni zamanda, siyasətçilər tez-tez sözügedən siyasətləri bütöv millətin maraqları üçün yürütdüklərini iddia edir və bəzi hallarda bu yanlış deyil. İqtisadçılar tez-tez azad ticarətdən çəkinmələrin milli rifahı azaltdığını bildirsələr belə, proaktiv ticarət siyasətlərinin bəzən bütün millətin rifahını artıra biləcəyinə inanmaq üçün səbəblər var.

32. ÜTT-nin yaranma tarixi və müasir dövrdə fəaliyyəti

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) beynəlxalq ticarəti tənzimləyən və ölkələr arasında ticarət qaydalarının tətbiqinə nəzarət edən beynəlxalq təşkilatdır. Onun yaranması GATT adlı sazişlə bağlıdır.

1. GATT-ın yaranması və ÜTT-yə keçid

İkinci Dünya müharibəsindən sonra beynəlxalq ticarəti tənzimləmək üçün çoxtərəfli danışıqlara başlanıldı. Əvvəlcə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə yanaşı, Beynəlxalq Ticarət Təşkilatının (ITO) yaradılması nəzərdə tutulurdu. Lakin xüsusilə ABŞ-da yaranan siyasi maneələr səbəbindən bu təşkilat yaradılmadı.

1947-ci ildə 23 ölkə gözləməkdən imtina edərək Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT) imzaladı. GATT əvvəlcə müvəqqəti razılaşma olsa da, sonrakı 48 il ərzində dünya ticarətini tənzimləyən əsas sistemə çevrildi.

GATT rəsmi beynəlxalq təşkilat deyil, razılaşma idi. Buna görə də iştirak edən ölkələr üzv deyil, razılaşan tərəflər adlanırdı. 1995-ci ildə isə Uruqvay raundunun nəticəsi olaraq Ümumdünya Ticarət Təşkilatı (ÜTT) yaradıldı. GATT-ın əsas ticarət qaydaları ÜTT-nin sistemində də qüvvədə qaldı.

2. GATT-ÜTT sisteminin işləmə prinsipi: linglər və dilçəklər

GATT-ÜTT sisteminin əsas məqsədi dünya ticarətini tədricən azad ticarətə doğru yönəltmək və ölkələrin əvvəlki məhdudlaşdırıcı siyasətə qayıtmasının qarşısını almaqdır. Bu sistem iki əsas mexanizmdən istifadə edir: dilçəklər və linglər.

Dilçəklər ölkələrin verdiyi ticarət güzəştlərindən geri çəkilməsinin qarşısını alır. Bunun əsas vasitəsi bağlı tariflərdir. Bağlı tarif o deməkdir ki, ölkə müəyyən tarif dərəcəsini gələcəkdə artırmamağa razılıq verir. İnkişaf etmiş ölkələrdə tariflərin demək olar ki, hamısı, inkişaf etməkdə olan ölkələrdə isə təxminən ¾-ü bağlıdır. Ölkə digər dövlətlərin razılığını almaq şərtilə tarifi artıra bilər, lakin adətən bunun əvəzində başqa tarifləri azaltmalıdır.

Bundan əlavə, GATT-ÜTT sistemi qeyri-tarif məhdudiyyətlərinin də qarşısını almağa çalışır. Məsələn, idxal kvotalarının tətbiqi, əsasən, qadağandır. Əvvəldən mövcud olan kvotaların ləğv edilməsi və ya tariflərə çevrilməsi istiqamətində tədbirlər görülür. Yalnız bazarda ciddi pozuntular və idxalın kəskin artması kimi hallarda müvəqqəti kvotalara icazə verilə bilər. İxrac subsidiyalarına da, əsasən, icazə verilmir, lakin kənd təsərrüfatı sahəsi üçün istisnalar mövcuddur.

Linglər isə azad ticarəti inkişaf etdirmək üçün istifadə olunur. Bunun əsas vasitəsi ticarət raundlarıdır. Ticarət raundları müxtəlif ölkələrin tariflərin azaldılması və ticarətin liberallaşdırılması barədə danışıqlar apardığı görüşlərdir.

3. Ticarət raundları

1947-ci ildən başlayaraq 8 ticarət raundu başa çatmışdır. Ən mühüm raundlar aşağıdakılardır:

İlk beş raund ikitərəfli danışıqlar formasında keçirilirdi. Ölkələr bir-biri ilə tariflərin azaldılması barədə razılığa gəlir və qarşılıqlı güzəştlər edirdilər. Müharibədən sonrakı iqtisadi bərpa prosesi də tariflərin əhəmiyyətli dərəcədə azalmasına kömək edirdi.

Kennedi raundu (1967) zamanı əsas sənayeləşmiş ölkələrdə müəyyən istisnalar olmaqla, tariflərin 50% azaldılması nəzərdə tutulmuşdu. Nəticədə orta tarif dərəcəsi təxminən 35% azaldı.

Tokio raundu (1979) zamanı tariflər daha mürəkkəb düstur əsasında azaldıldı. Həmçinin könüllü ixrac məhdudiyyətləri və tənzimlənən marketinq razılaşmaları kimi qeyri-tarif maneələrinə nəzarət etmək üçün yeni mexanizmlər yaradıldı.

Uruqvay raundu (1994) səkkizinci və ən mühüm raundlardan biri oldu. Bu raundun nəticəsində 1995-ci ildə ÜTT yaradıldı və dünya ticarət sistemində yeni mərhələ başlandı.

Doha raundu isə 2001-ci ildə Qətərin Doha şəhərində başlandı. Bu, doqquzuncu raund hesab olunur. Lakin uzun illər davam edən danışıqlar razılaşma ilə nəticələnmədi.

4. GATT və ÜTT arasındakı fərqlər

ÜTT GATT-ın davamı olsa da, ondan daha geniş fəaliyyət sahəsinə və hüquqi statusa malikdir.

Birinci fərq – hüquqi statusdur. GATT sadəcə beynəlxalq ticarət sazişi idi, ÜTT isə tam hüquqlu beynəlxalq təşkilatdır. GATT-ın əsas qaydaları yenilənmiş formada ÜTT-nin qaydalarına daxil edilmişdir.

İkinci fərq – xidmətlər ticarətidir (GATS). GATT yalnız əmtəə ticarətini tənzimləyirdi. Bankçılıq, sığorta və konsaltinq kimi xidmətlər üzrə ümumi beynəlxalq qaydalar mövcud deyildi. Buna görə ÜTT-nin tərkibinə GATS – Xidmətlər Ticarəti üzrə Ümumi Razılaşma daxil edildi. Bu razılaşma xidmətlər sahəsində beynəlxalq ticarət qaydalarının formalaşdırılmasına xidmət edir.

Üçüncü fərq – intellektual mülkiyyətin qorunmasıdır (TRIPS). Müasir iqtisadiyyatda patentlər, müəllif hüquqları və digər intellektual mülkiyyət formaları böyük əhəmiyyət daşıyır. Buna görə ÜTT TRIPS – İntellektual Mülkiyyətin Ticarətlə Bağlı Aspektləri üzrə Razılaşmanı qəbul etdi. Bu razılaşma patent və müəllif hüquqlarının beynəlxalq səviyyədə qorunmasına yönəlmişdir. Xüsusilə əczaçılıq sənayesində TRIPS-in tətbiqi müzakirələrə səbəb olmuşdur.

5. ÜTT-nin mübahisələrin həlli proseduru

ÜTT-nin əsas fəaliyyət istiqamətlərindən biri ölkələr arasında yaranan ticarət mübahisələrini həll etməkdir.

Məsələn, Kanada ABŞ-ı taxta idxalına ədalətsiz məhdudiyyətlər qoymaqda ittiham edə bilər. Belə hallarda ÜTT mübahisəni araşdırır və qərar qəbul edir.

ÜTT yaradılmamışdan əvvəl bu cür mübahisələrin həlli çox uzun çəkirdi. Beynəlxalq tribunalların qərarlarının icrasını təmin etmək də çətin idi. GATT-ın qaydaları mövcud olsa da, bəzi mübahisələr illərlə həll olunmamış qalırdı.

ÜTT bu prosesi daha rəsmi və səmərəli etdi. Mübahisələri araşdırmaq üçün ekspert panelləri yaradılır. Onlar adətən bir ildən az müddətdə qərar qəbul edirlər. Apellyasiya olduqda isə bütün prosesin 15 aydan çox çəkməməsi nəzərdə tutulur.

Əgər ÜTT bir ölkənin qaydaları pozduğunu müəyyən edirsə, həmin ölkə öz siyasətini dəyişməlidir. Lakin ÜTT-nin özü birbaşa sanksiya tətbiq etmək hüququna malik deyil. Qaydanı pozan ölkə qərara əməl etmədikdə, şikayətçi ölkəyə həmin dövlətin ixracına qarşı cavab tədbirləri görmək hüququ verilə bilər.


Əksər hallarda ölkələr mübahisənin böyüməsinin qarşısını almaq üçün ÜTT-nin qərarlarını qəbul edir və öz ticarət siyasətlərini dəyişirlər. Bəzi hallarda isə mübahisənin ÜTT-yə çıxarılacağı ilə bağlı xəbərdarlıq belə problemin həllinə səbəb olur.

Mübahisələrin həllinə nümunə kimi ABŞ və Venesuela arasında idxal olunan benzinlə bağlı mübahisəni göstərmək olar. Bu hadisə ÜTT-nin milli suverenliyə təsiri ilə bağlı müzakirələrdə nümunə kimi istifadə edilmişdir.

33. Optimal tarif nədir? Cavabınızı qrafiklə dəstəkləyin.

Azad ticarətdən çəkinmək üçün arqumentlərdən biri birbaşa xərc və fayda təhlilindən əmələ gəlir: xarici ixracatçıların qiymətlərinə təsir etmək qüvvəsində olan böyük ölkədə tarif idxal qiymətini azaldaraq ticarət şərtlərinə əsaslanan faydaları ortaya gətirir. Həmin faydalar tarifin istehsal və istehlak stimullarını təhrif etdiyi səbəbindən yaranan tarif xərcləri ilə qarşı-qarşıya qoyulmalıdır. Ehtimal var ki, bəzi hallarda tarifin ticarət şərtlərinin faydaları onun gətirdiyi xərcləri üstələyəcək, bu da tarif üçün ticarət şərtləri arqumentini təşkil edir.

Kifayət qədər aşağı tarifin ticarət şərtləri faydalarının xərclərini üstələməli olduğunu göstərmək mümkündür. Deməli, aşağı tariflər tətbiq olunduğu halda böyük ölkənin rifahı azad ticarət olduğu vəziyyətlə müqayisədə daha böyükdür (Şəkil 10.2). Halbuki tarif dərəcəsi artdıqca xərclərin artım sürəti faydalarınkını geridə qoyur və milli rifahı tariflərlə əlaqələndirən əyri aşağıya doğru əyilməyə başlayır. Ticarəti tamamilə qadağan edən tarif dərəcəsi (Şəkil 10.2-dəki tp) ölkə üçün azad ticarətlə müqayisədə daha əlverişsizdir; tarifin bundan sonrakı artımları artıq heç bir təsir göstərmir və əyri yastılaşır.



Şəkil 10.2-dəki əyridə t_0 tarif dərəcəsinə uyğun olan 1 nöqtəsində milli rifah maksimuma çatır. Milli rifahı maksimallaşdıran t_0 tarif dərəcəsi optimal tarif adlanır. (Adətən optimal tarif anlayışı bütün şərtlər nəzərə alındıqdan sonra ən yaxşı tarif dərəcəsini yox, ticarət şərtləri arqumentinin bəraət qazandırdığı tarif dərəcəsini təsvir etmək üçün istifadə olunur.) Optimal tarifin dəyəri həmişə müsbətdir, lakin bütün idxalları ləğv edən qadağanedici dərəcədən (tp) aşağıdır.

İxrac yönümlü sahələr üçün siyasət bəs ticarət şərtləri arqumenti ixrac yönümlü sahələr üçün hansı siyasətin yürüdülməsini tələb edir? İxrac subsidiyasının ticarət şərtlərini pisləşdirdiyi və beləliklə, milli rifahı birmənalı şəkildə azaltdığı üçün ixracyönümlü sahələrdə optimal siyasət mənfi subsidiya, yəni ixracın xaricilər üçün qiymətini qaldıran ixrac vergisi olmalıdır. Optimal tarif kimi, optimal ixrac vergisinin dərəcəsi həmişə müsbətdir, amma bütün ixracı ləğv edəcək qadağanedici vergidən aşağıdır. Səudiyyə Ərəbistanı və digər neft ixracatçılarının siyasəti neftin ixracından vergi tutaraq dünya qiymətini qaldırmaqdan ibarət olmuşdur. Neft qiymətlərinin illər ərzində qalxıb-düşdüyünə baxmayaraq, Səudiyyə Ərəbistanı üçün azad ticarət rejiminin daha əlverişli olduğunu iddia etmək çətin ki mümkündür.

Arqumentin məhdudiyyətləri buna baxmayaraq, azad ticarət əleyhinə ticarət şərtləri arqumenti vacib məhdudiyyətlərə malikdir:

- Kiçik ölkələr: əksər kiçik ölkələrin həm ixrac, həm də idxal etdiyi məhsulların dünya qiymətlərinə təsir etmə imkanları çox zəifdir və beləliklə, ticarət şərtləri arqumenti onlar üçün çox aşağı praktiki əhəmiyyətə malikdir.
- Böyük ölkələr: ABŞ kimi böyük ölkələr üçün problem ticarət şərtləri arqumentinin milli inhisar imkanlarından istifadə edib digər ölkələrin hesabına qazanmağa bərabər olmasından ibarətdir. Təbii ki, ABŞ buna müəyyən dərəcədə nail ola bilərdi, lakin bu cür yırtıcı siyasət yəqin ki, digər böyük ölkələr tərəfindən əks-tədbirlərin görülməsi ilə nəticələnərdi. Cavab ticarət qərarlarının silsiləsi isə beynəlxalq ticarət siyasətinin koordinasiyası istiqamətində göstərilən cəhdləri təhlükə altına qoyacaqdı.

Nəticə. Beləliklə, azad ticarətin əleyhinə ticarət şərtləri arqumenti intellektual baxımdan təkzibolunmaz olsa da, onun praktiki əhəmiyyəti şübhəli qalır. Reallıqda onun iqtisadçılar tərəfindən dövlətlərin ticarət siyasətlərinə bəraət qazandırmaq üçün istifadə etdikləri nəzəri fərziyyə olduğu daha çox qeyd olunur.

34. Azərbaycan–ÜTT münasibətləri: müsbət və mənfi cəhətlə

(Qeyd: bu sual Gemini-dən alınıb, mühazirədə yoxdur.)

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük prosesi ölkənin makroiqtisadi sabitliyinə, qeyri-neft iqtisadiyyatına və sosial-iqtisadi inkişafına potensial müsbət təsirlər (faydalar) ilə yanaşı, daxili bazar və yerli istehsalçılar üçün mənfi cəhətlər (risk, çətinlik və təhlükələr) də yarada bilər.

1. Məsələnin tarixi vəziyyəti və strateji əhəmiyyəti
   Azərbaycan Respublikası 1997-ci ildən etibarən ÜTT-də müşahidəçi statusuna malikdir. Müstəqilliyin ilk illərindən başlayaraq ölkə iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi neft-qaz sektoru olmuş, büdcə və valyuta daxilolmalarının

böyük hissəsi məhz bu sahədən təmin edilmişdir. Lakin neft resurslarının tükənən olması və qlobal enerji bazarlarındakı kəskin qiymət tərəddüdləri dövlətin qarşısına qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, sənayenin şaxələndirilməsi, innovativ iqtisadiyyata keçid və milli məhsulların dünya bazarlarına çıxarılması kimi strateji vəzifələr qoymuşdur.

ÜTT-yə üzvlük bu qlobal iqtisadi inteqrasiya modelinin tərkib hissəsi kimi nəzərdə tutulur. Danışıqlar prosesi iki əsas istiqamətdə aparılır:

1. Çoxtərəfli danışıqlar: Ticarət rejimi haqqında İşçi Qrupu çərçivəsində milli qanunvericiliyin ÜTT qaydalarına uyğunlaşdırılması.
2. İkitərəfli danışıqlar: Üzv ölkələrlə mal və xidmət bazarlarına çıxış üzrə tarif güzəştlərinin razılaşdırılması.
3. Müsbət cəhətlər (faydalar)

A. Qeyri-neft ixracının genişlənməsi və xarici bazarlara çıxış

- Diskriminasiyasız ticarət rejimi: ÜTT-yə üzvlük Azərbaycana təşkilatın 160-dan çox üzv ölkəsinin bazarlarına Ən Böyük Üstünlük Verilən Ölkə (MFN) rejimi əsasında çıxış imkanı verir. Bu, Azərbaycanın kənd təsərrüfatı (meyvə-tərəvəz, pambıq, fındıq, şərabçılıq), kimya sənayesi, tikinti materialları və emal sənayesi məhsullarına qarşı tətbiq oluna biləcək süni tarif və ya qeyri-tarif sədlərinin qarşısını alır.
- İxrac coğrafiyasının şaxələnməsi: Hazırda qeyri-neft ixracının böyük hissəsi regional bazarlardan (xüsusilə MDB ölkələrindən) asılıdır. ÜTT üzvlüyü Azərbaycan brendlərinin Avropa, Asiya və Amerika bazarlarına birbaşa və maneəsiz daxil olmasını asanlaşdırır.

B. Xarici investisiyaların cəlb edilməsi və biznes mühitinin islahatı

- Hüquqi şəffaflıq və proqnozlaşdırıla bilən mühit: ÜTT qaydaları milli qanunvericiliyin şəffaf, açıq və beynəlxalq standartlara cavab verməsini tələb edir. Bu, xarici investorlar üçün hüquqi qeyri-müəyyənlikləri aradan qaldırır və ölkənin investisiya cəlbediciliyini artırır.
- Qeyri-neft sektoruna kapital axını: Xarici investorlar yalnız neft-qaz sektoruna deyil, ÜTT standartları ilə qorunan xidmət, logistika, bərpa olunan enerji, İKT və sənaye sahələrinə sərmayə qoymağa həvəslənirlər.

C. İstehlakçı rifahı və idxal olunan malların keyfiyyəti

- Qiymətlərin düşməsi və seçim imkanı: İdxal rüsumlarının və proteksionist sədlərin azaldılması daxili bazarda xarici malların və xidmətlərin qiymətinin aşağı düşməsinə gətirib çıxarır. Bu da yerli istehlakçıların alıcılıq qabiliyyətini artırır, daha keyfiyyətli məhsulları ucuz qiymətə əldə etməsinə imkan verir.
- Texniki tənzimləmə və standartlaşdırma (TBT və SPS): ÜTT-nin Texniki Maneələr (TBT) və Sanitariya/Fitosanitariya Tədbirləri (SPS) üzrə sazişlərinə qoşulmaqla

daxili bazara keyfiyyətsiz, standartlara cavab verməyən və ya insan sağlığı üçün təhlükəli malların daxil olmasının qarşısı beynəlxalq mexanizmlərlə alınır.

Ç. Qanunvericilik və institusional islahatlar

- İntellektual mülkiyyətin qorunması (TRIPS): Müəllif hüquqları, patentlər və əmtəə nişanlarının beynəlxalq səviyyədə qorunması təmin edilir ki, bu da ölkədə innovasiyaların, İKT və kreativ sənayenin inkişafına təkan verir.
- Gömrük prosedurlarının asanlaşdırılması: Ticarətin Asanlaşdırılması Sazişi çərçivəsində gömrükdə şəffaflıq artır, sənədləşmə sadələşir, bürokratik əngəllər və korrupsiya riskləri minimuma endirilir.

D. Beynəlxalq ticarət mübahisələrinin həlli mexanizmi

- Azərbaycan digər dövlətlər tərəfindən hər hansı ədalətsiz ticarət sanksiyası, dempinq və ya ayrı-seçkiliklə qarşılaşdıqda öz haqqını ÜTT-nin Mübahisələrin Həlli Orqanı (Dispute Settlement Body) vasitəsilə hüquqi müstəvidə bərpa edə bilər.

4. Mənfi cəhətlər (risk və çətinliklər)

A. Yerli istehsalçıların zəif rəqabət qabiliyyəti və proteksionizmin itirilməsi

- Yerli sənayenin sıxışdırılması: Azərbaycanın qeyri-neft sənayesi və emal sektoru hələ tam formalaşma və inkişaf mərhələsindədir. Gömrük tariflərinin kəskin azaldılması nəticəsində ucuz və yüksək keyfiyyətli xarici məhsullar daxili bazarı tutur. Texnoloji və maliyyə baxımından zəif olan yerli müəssisələrin sıxışdırılması və müflisləşmə riski yaranır.
- Kənd təsərrüfatı sektorunda təhlükə: Azərbaycan əhalisinin böyük bir hissəsi aqrar sektorda məşğuldur. Avropa və ya Amerika kimi inkişaf etmiş ölkələrin yüksək texnologiyalı və subsidiyalaşdırılmış kənd təsərrüfatı məhsulları ilə yerli fermerlərin daxili bazarda rəqabət aparması çox çətindir.

B. Dövlət subsidiyalarının məhdudlaşdırılması (ən həssas məsələ)

- "Sarı qutu" (Amber Box) subsidiyalarının məhdudlaşdırılması: ÜTT ticarəti təhrif edən birbaşa subsidiyaların (istehsal həcminə, toxum/gübrə güzəştlərinə və ya qiymətə bağlı köməklər) azaldılmasını tələb edir. Azərbaycan hazırda kənd təsərrüfatına böyük həcmdə birbaşa subsidiyalar verir. Danışıqlarda Azərbaycan özünü "inkişaf etməkdə olan ölkə" statusunda təsdiqlətməyə və daha yüksək subsidiya limiti (10%-lik de-minimis) almağa çalışır, inkişaf etmiş ölkələr isə buna müqavimət göstərir.

C. Dövlət büdcəsi gəlirlərinin azalması

- İdxal rüsumlarının aşağı salınması Dövlət Gömrük Komitəsi vasitəsilə büdcəyə toplanan rüsum daxilolmalarının azalması ilə nəticələnə bilər.

Ç. Xidmətlər və maliyyə sektorunun xarici təzyiqə məruz qalması

- ÜTT-nin Xidmətlər Ticarəti üzrə Ümumi Razılaşması (GATS) tələb edir ki, xarici banklar, sığorta şirkətləri, telekommunikasiya və nəqliyyat şirkətləri daxili bazara buraxılsın. Bu halda hələ tam möhkəmlənməmiş yerli bank-maliyyə sistemi və xidmət sektoru xarici transmilli korporasiyaların rəqabətinə tab gətirməyə bilər.
    D. Sosial risklər və işsizlik
- Xarici malların rəqabətinə dözməyərək bağlanan və ya istehsalını daraldan yerli fabriklər və fermer təsərrüfatları kütləvi ixtisarlara səbəb ola bilər. Bu da xüsusilə regionlarda işsizliyin artması və sosial gərginliyin yaranması riskini doğurur.

5. Yekun qiymətləndirmə və strategiya

Azərbaycanın ÜTT-yə daxil olması qlobal iqtisadiyyata inteqrasiya və uzunmüddətli davamlı inkişaf üçün zəruri bir addım hesab olunur. Lakin qeyd olunan mənfi riskləri neytrallaşdırmaq üçün Azərbaycan hökuməti danışıqlar prosesində tələsməmək və maksimal dərəcədə əlverişli şərtlər əldə etmək taktikası yürüdür:

1. Keçid dövrü (Transition Period): Yerli sənaye və kənd təsərrüfatının uyğunlaşması üçün uzunmüddətli (məsələn, 7–10 illik) güzəştli keçid dövrünün alınması.
2. Kənd təsərrüfatı subsidiyaları: “İnkişaf etməkdə olan ölkə” statusu əldə edərək fermerlərə dəstək limitlərini yüksək saxlamaq.
3. Milli sənayenin gücləndirilməsi: ÜTT-yə tam üzv olana qədər daxili istehsalçıların texnoloji yenilənməsini təmin etmək və onları rəqabətə hazırlamaq.

35. ÜTT-in Doha və Uruqvay raundları haqqında məlumat verin, Doha raundunun bəzən uğursuz hesab edilmə səbəblərini izah edin.

1. Uruqvay raundu (1986–1994)

Uruqvay raundu GATT çərçivəsində keçirilən səkkizinci beynəlxalq ticarət danışıqları raundudur. Danışıqlar 1986-cı ildə Uruqvayın Punta del Este şəhərində başlamış, 1994-cü ilin aprelində Mərakeşdə imzalanan razılaşma ilə başa çatmışdır. Danışıqların 1990-cı ildə bitməsi nəzərdə tutulsa da, ciddi siyasi fikir ayrılıqlarına görə 1994-cü ilə qədər davam etmişdir.

Uruqvay raundunun əsas nəticələri iki istiqamətdə olmuşdur: ticarətin liberallaşdırılması və inzibati islahatlar.

Ticarətin liberallaşdırılması: Raund nəticəsində inkişaf etmiş ölkələrdə orta tarif dərəcəsi təxminən 40% azaldılmış, 6,3%-dən 3,9%-ə düşmüşdür. Lakin ən mühüm nəticələr kənd təsərrüfatı və tekstil-geyim sektorlarında ticarət məhdudiyyətlərinin azaldılması olmuşdur.

Kənd təsərrüfatı sahəsində ixrac subsidiyalarının və idxal məhdudiyyətlərinin azaldılması nəzərdə tutulmuşdur. Razılaşmaya əsasən, kənd təsərrüfatı ixracatçıları 6 il ərzində subsidiyaların həcmini 36%, subsidiyalaşdırılan ixracın həcmini isə 21% azaltmalı idilər.

Yaponiya kimi fermerlərini idxal kvotaları ilə qoruyan ölkələrdən kvotaları gələcəkdə artırılması mümkün olmayan tariflərlə əvəz etmək tələb olunmuşdur.

Tekstil və geyim sahəsində Multi-Lif Razılaşmasının (MFA) ləğvi nəzərdə tutulmuşdur. Bu razılaşma tekstil və geyim ticarətinə ciddi məhdudiyyətlər qoyurdu. Uruqvay raundu həmin sahədəki rəqəmli məhdudiyyətlərin 10 il ərzində aradan qaldırılmasını təmin etdi. 1 yanvar 2005-ci ildə kvotalar ləğv olundu. Nəticədə xüsusilə Çinin ABŞ və Avropa ölkələrinə geyim ixracı kəskin artdı.

Dövlət satınalmaları sahəsində də yeni qaydalar qəbul edildi. Əvvəllər dövlət qurumlarının alışları çox vaxt yerli istehsalçıları qoruyurdu. Yeni qaydalar xarici şirkətlərin də böyük dövlət satınalmalarında iştirakına imkan yaratdı və bu bazarı beynəlxalq rəqabətə daha açıq etdi.

2. Uruqvay raundunun faydaları və xərcləri

Uruqvay raundunun dünya iqtisadiyyatına təsiri ilə bağlı qiymətləndirmələrə əsasən, dünya iqtisadiyyatının illik qazancı 200 milyard dollardan çox, dünya gəlirinin artımı isə təxminən 1% ola bilərdi.

Bu razılaşmanın faydaları və xərcləri ölkələr və əhali qrupları arasında fərqli bölüşdürülmüşdür. Əsas faydanı istehlakçılar və vergi ödəyiciləri, xərcləri isə bəzi yerli istehsalçılar və fermerlər hiss etmişlər.

Məsələn, kənd təsərrüfatı sahəsində məhdudiyyətlərin azaldılması Avropa və Yaponiyadakı fermerlərə mənfi təsir göstərmişdir. Lakin həmin ölkələrin istehlakçıları daha münasib qiymətlərlə məhsul əldə etmək imkanı qazanmışlar. Eyni vəziyyət tekstil və geyim sahəsində də müşahidə olunmuşdur: yerli şirkətlər və işçilər rəqabətlə üzləşsələr də, istehlakçılar daha ucuz məhsullardan faydalanmışlar.

Uruqvay raundunun qəbul edilməsinə bir neçə siyasi amil kömək etmişdir. ABŞ kənd təsərrüfatı məhsulları və xidmət ixracından əldə edəcəyi faydalara görə razılaşmanı dəstəkləmişdir. İnkişaf etməkdə olan ölkələr tekstil və geyim ixracı üçün yeni imkanlar əldə edəcəklərini düşünürdülər. Bundan əlavə, bəzi ölkələr artıq həyata keçirmək istədikləri iqtisadi islahatları bu razılaşma vasitəsilə əsaslandırırdılar.

Ən vacib amillərdən biri isə danışıqların uğursuz olacağı təqdirdə proteksionizmin yenidən güclənəcəyi qorxusu idi. Ölkələr əvvəlki onilliklərdə əldə edilmiş azad ticarət nailiyyətlərinin itirilməsindən ehtiyat edirdilər.

3. Doha raundu (2001-ci ildən)

Doha raundu ÜTT çərçivəsində keçirilən doqquzuncu beynəlxalq ticarət danışıqları raundudur. 2001-ci ildə Qətərin Doha şəhərində başlamışdır. Əsas məqsəd dünya

ticarətini daha da liberallaşdırmaq, qalan ticarət maneələrini azaltmaq və ölkələr arasında yeni razılaşmalara nail olmaq idi.

Lakin uzun illər davam edən danışıqlara baxmayaraq, iştirakçı ölkələr ortaq razılığa gələ bilmədilər. Buna görə də Doha raundu uğursuz hesab olunur.

Bununla belə, Doha raundunun uğursuzluğu əvvəlki raundlarda əldə edilmiş nəticələrin ləğv edilməsi demək deyil. Əvvəlki səkkiz raundda azaldılmış tariflər qüvvədə qalır və dünya ticarəti əvvəlki dövrlərlə müqayisədə daha azad olaraq qalır.

4. Doha raundunun uğursuz hesab edilməsinin səbəbləri

Doha raundunun uğursuzluğunun əsas səbəblərindən biri əvvəlki raundlar nəticəsində ticarət maneələrinin artıq xeyli azaldılması idi. Yəni qalan tariflər nisbətən aşağı olduğundan onların daha da azaldılmasından əldə ediləcək əlavə faydalar böyük deyildi.

Əsas problem kənd təsərrüfatı sahəsindəki məhdudiyyətlər idi. Sənaye məhsullarının əksəriyyətində ticarət maneələri artıq aşağı səviyyədə idi. Buna görə əlavə liberallaşmadan əldə edilə biləcək əsas faydalar kənd təsərrüfatı tariflərinin və ixrac subsidiyalarının azaldılmasından asılı idi. Lakin kənd təsərrüfatı siyasi baxımdan çox həssas sahə idi. İnkişaf etmiş ölkələrdə fermer qrupları öz maraqlarını qorumaq üçün hökumətlərə güclü təsir göstərirdilər.

Dünya Bankının hesablamalarına görə, kənd təsərrüfatı məhsullarının dünya ticarətində payı 10%-dən az olsa da, bu sahənin liberallaşdırılması ümumi liberallaşmadan əldə ediləcək faydaların 63%-ni təmin edə bilərdi. Lakin fermer qruplarının müqaviməti bu addımın həyata keçirilməsini çətinləşdirirdi.

Digər mühüm səbəb inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin maraqlarının toqquşması idi. Kasıb ölkələr əldə edəcəkləri faydaların az olduğunu düşünür və varlı ölkələrdən daha böyük güzəştlər tələb edirdilər. Varlı ölkələr isə öz fermerləri kimi güclü maraq qruplarını narazı salmaq istəmirdilər. Eyni zamanda inkişaf etməkdə olan ölkələr də qarşılıqlı güzəşt kimi qalan tarifləri əhəmiyyətli dərəcədə azaltmağa hazır deyildilər.

Bundan başqa, Doha raundunda müzakirə olunan təkliflər tam liberallaşmanı nəzərdə tutmurdu. Hətta razılıq əldə edilsəydi belə, gözlənilən iqtisadi faydalar böyük olmayacaqdı. Dünya Bankının hesablamalarına əsasən, ən iddialı ssenaridə belə dünya üzrə rifah artımı ÜDM-in cəmi 0,18%-ni təşkil edəcəkdi. Daha realistik ssenaridə isə bu göstərici üç dəfədən çox aşağı olacaqdı.

Beləliklə, ölkələr əldə edəcəkləri faydaları kifayət qədər böyük hesab etmədiklərinə görə qarşılıqlı güzəştlərə getmək istəmirdilər. Bu fikir ayrılıqları Doha raundunun razılaşma olmadan nəticələnməsinə səbəb oldu.

CƏDVƏL 10.4 Azad ticarətdən potensial faydaların bölüsdürülməsi, faizlə

İqtisadiyyat	Tam liberallaşma: Kənd təsərrüfatı və Qida	Parça və geyim	Digər əmtəələr	Bütün əmtəələr
İnkişaf etmiş	46	6	3	55
İnkişaf etməkdə olan	17	8	20	45
Bütün ölkələr	63	14	23	100

Mənbə: Kym Anderson and Will Martin, "Agricultural Trade Reform and the Doha Agenda," The World Economy 28 (September 2005), pp. 1301–1327.

CƏDVƏL 10.5 Dohanın hər iki ssenarisində faydaların ümumi gəlirlərdə payı

	Iddialı	Realistik
Yüksək gəlirli	0.20	0.05
Orta gəlirli	0.10	0.00
Çin	- 0.02	- 0.05
Aşağı gəlirli	0.05	0.01
Bütün dünya	0.18	0.04

Mənbə: Cədvəl 10.4 baxın